Günəş Şərqdən doğur!

❒ № 192 (5713), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 21 oktyabr 2022-ci il (cümə)




## Çörək, dadını görək!

Əhalinin böyük əksəriyyəti keyfiyyətdən narazıdır

**Çörək bahalaşandan dəyəri də artıb.** Çörək, onsuz da heç vaxt dəyərsiz olmayıb. Sadəcə, son illərdə çörək atılmasına çox rast gəlinirdi.

(Səh.9)

## Qısa ətək, saç rəngləmək, saqqal saxlamaq şagirdlərə qadağan edilir



**Məlum olduğu kimi, bir neçə gündür Elm və Təhsil Nazirliyi tərəfindən "Ümumi təhsil müəssisələrində şagird davranış qaydaları" hazırlanıb.**

Sözügedən layihə artıq nazirliyin saytında yayımlanıb.

(Səh.13)



## Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın tələbini rədd edib

Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın Məhkəmənin 7 dekabr 2021-ci il tarixli qərarında dəyişiklik edilməsi barədə tələbini rədd edib.

Bu barədə Beynəlxalq Ədalət Məhkəməsinin mətbuat xidməti məlumat yayıb.

(Səh.2)

## Liz Trass istefa verdi

İngiltərədə 2-ci Dəmir Ledi dövrü ay yarım çəkdi



**İngiltərədə ay yarım əvvəl baş nazir seçilən Liz Trass, açıqladığı iqtisadi siyasətə reaksiyalardan sonra istefa verib.**

Britaniyanın 3-cü qadın baş naziri Liz Trass Marqaret Tetçerdən sonra 2-ci Dəmir Ledi adlandırılıb.

(Səh.4)



# Tarixi gün!

## Zəngilan Beynəlxalq Hava Limanının açılışı dünyaya mesajdır

(Səh.2)



## Türkiyə hərbçilərinin Monitorinq Mərkəzində qalma müddəti uzadılır

**Azərbaycandakı Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzindəki türk hərbçilərin mandatının uzadılması barədə qanun layihəsi Türkiyə Böyük Millət Məclisinə təqdim edilib.**

Bununla bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından qanun layihəsi Türkiyə Böyük Millət Məclisinin sədrliyinə təqdim edilib.

*Qeyd edək ki, atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi Ağdamda yerləşir.*

# 1 milyon insan Bakını tərk edəcək

Şəhər dərin nəfəs alacaq, tıxaclar azalacaq



**Son dövrlərdə paytaxt yollarındakı tıxaclar Bakı sakinləri üçün ciddi problemlərdən birinə çevrilib.**

Bakıda tikinti bumunun müşahidə olunması və şəhərin sıx şəkildə tikilmiş hündür binalarla dolması paytaxtda gərginliyi daha da artırıb. Nəticədə şəhər yolları iflic vəziyyətindədir. Ekspertlərin fikrincə, əhalinin Bakıya cəmləşməməsi, əksinə, paytaxta toplaşmış region əhalinin bölgələrə qayıtması üçün sosial-iqtisadi tədbirlər görülməlidir. Digər şəhərlərdə fabrik və zavodlar tikilməli, bəzi ali məktəblər başqa şəhərlərə köçürülməli, vaxtilə ləğv edilmiş nəqliyyat sistemləri - tramvay, trolleybus və elektrik qatarları - bərpa edilməlidir.

(səh.8)

## Metroda telefonla gedişhaqqı ödəmək mümkün olacaq



**Gələn ildən Bakı metropoliteni stansiyalarda təmassız ödəniş etmək imkanı yaratmağı nəzərdə tutur.**

Bu barədə Trend-ə "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib.

O bildirib ki, artıq prosesin tətbiqi ilə bağlı işlər davam etdirilir: "Texniki dizayn və təkrar sınaq işləri başa çatandan sonra sistem istifadəyə veriləcək. Bundan sonra sərnişinlər smart saatlar, mobil cihazlar, QR kodlar və bank kartları ilə gedişhaqqı ödəyə biləcəklər".

## Ölən yoxdur

Daha 54 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 54 yeni yoluxma faktı qeydə alınıb, 79 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslər arasında vəfat edən olmayıb.

İndiyədək ölkədə ümumilikdə 822 805 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 812 486 nəfər müalicə olunaraq sağalıb, hazırda 384 aktiv xəstə var. Bu günə qədər 9 935 nəfər vəfat edib.



## Ekspert BNA rəsmisinin çağırışını gülünc adlandırdı

"Necə yeni avtomobildən istifadə etməyin? At minsinlər?"

(səh.14)



## Hamıya pul paylamaq əks effekt verər

Natiq Cəfərli: "Ona görə də biz ərzaq məhsullarının əlavə dəyər vergisinin 18 faizdən 2 faizə endirilməsini təklif edirik"

(səh.8)





**Oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi olub. Açılışda dövlət başçısı İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak ediblər. Azərbaycan və Türkiyə prezidentləri hava limanının rəmzi açılışını bildirən lenti kəsiblər. Zəngilan Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edilib.**

# Tarixi gün!

## Zəngilan Beynəlxalq Hava Limanının açılışı dünyaya mesajdır

Sonra dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış olublar. Qeyd edək ki, Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyektlərdəndir. Həmçinin, hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Görülən işlərin sürəti buranın beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevriləcəyi günü yaxınlaşdırmaqdadır. Onu da deyək ki, Zəngilan Beynəlxalq Hava Limanı işğaldan azad olunan ərazilərdə Füzulidəki hava limanından sonra istifadəyə verilən beynəlxalq statuslu ikinci aeroportdur. Üçüncü hava limanı isə Laçın rayonunun ərazisində inşa olunur. Zəngilan Beynəlxalq Hava Limanının asfalt-beton örtüklü uçuş-enmə zolağının uzunluğu 3 min metr, eni 60 metr təşkil edir. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən geniş gövdəli ağır yük təyyarələrini qəbul edəcək.

Liderlər hava limanının açılışı ilə bərabər Cəbrayıl və Zəngilan rayonlarında bir sıra mühüm obyektlərin təməlqoyma mərasimində də birgə iştirak ediblər. Dövlət başçıları "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməlini qoyublar, əraziyə 15 baş ceyran buraxılıb. Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev kompleksdə görüləcək işlərlə bağlı dövlət başçılarına məlumat verib. Sonra Azərbaycan və Türkiyə prezidentləri ərazidə ağac əkiblər. Azərbaycan və Türkiyə prezidentləri Cəbrayılda Qumlaq dəmir yolu stansiyasının təməlini qoyublar. Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev dövlət başçılarına Horadiz-Ağbənd dəmir yolu xətti və Qumlaq stansiyası barədə məlumat verib. Sonra liderlər Zəngilanda "Dost Aqropark"ın I mərhələsinin açılışında iştirak ediblər. Dövlət başçılarına kompleks barədə məlumat verilib.

Vətən savaşından sonra Cənubi Qafqazda əməkdaşlıq mühitinin formalaşmasında, "suların durulmasında" qardaş ölkənin mühüm rolu var. Bu, xüsusilə Ankara ilə İrəvan arasında diplomatik münasibətlərin bərpası kontekstindən qiymətləndirilməlidir. Artıq nəinki regional siyasi aktorlar, bütün dünya bilir ki, Türkiyə ilə Azərbaycan regionda birgə addım atır. Bu iki dövlətin qardaşlığı artıq planetə məlumdur.

### Türkiyə və Azərbaycan regionda birgə addımlar atır

Əlbəttə, qarşılıqlı səfərlərin beynəlxalq ictimai rəyin formalaşmasında mühüm rolu var. Ərdoğanın işğaldan azad edilmiş ərazilərə səfərləri, xüsusilə hava limanlarının açılışında iştirakı dünyaya verilən vacib mesajdır. Türkiyə regionda sabitliyin qorunmasında əsaslı rol oynayır. Bölgədə xaos yaratmaq istəyən güclər bunu mütləq nəzərə almalı, nəinki Bakı, həm də Ankara ilə hesablaşmalıdır. Ötən ilin oktyabr ayında da İran Araz boyu ərazilərdə hərbi təlimlərlə "güc nümayişi" sərgiləmişdi və həmin ərəfədə Ərdoğan Füzuli Hava Limanının açılışı məqsədilə işğaldan azad edilən ərazilərə gəlmişdi. Bir il sonra yenə eyni senari təkrarlandı. Azərbaycanla Türkiyə arasında baş tutan qarşılıqlı səfərlər Türk Dövlətləri Təşkilatının inkişafı, türkdilli dövlətlərin inteqrasiyası baxımından mühüm əhəmiyyətə malikdir.

**Millət vəkili Sahib Alıyev deyib ki, Arazboyu təlim keçirənlər İkinci Qarabağ savaşı günlərində Ermənistana cəbhədəki durumla bağlı kəşfiyyat məlumatı ötürülməsindən tutmuş, ərazisindən keçməklə silah-sursat, terrorçu dəstələrin göndərilməsinədək hər cür dəstək verdi.** Sonda hətta Zəngilan yaxınlığında ordumuzun önünü kəsmək, torpaqlarımızın azad edilməsinə maneçilik törətmək kimi bir rəzilliyə də əl atdı. Amma məqsədinə çata bilmədi: "2020-ci ilin 20 oktyabrında Zəngilan düşməndən azad edildi. Düz iki il sonra, Zəngilanın azad edildiyi gündə orada Beynəlxalq Hava Limanının açılışı və bu açılışa qardaş Türkiyənin lideri cənab Ərdoğanın təşrif gətirməsi təlim keçirənlərə bir ismarıcdır. Yəni "nə edirsiniz edin, proses gedəcək". Zəngilanın azad olunması, bu gün orada Zəngəzurun hava qapısının açılması kimi regionla bağlı digər planlar da reallaşdırılacaq. Maneçilik törətməyə qalxsanız, Zəngilan Beynəlxalq Hava Limanının başqa bir özəlliyini də görəcəksiniz və bu sizə çox baha başa gələcək. Əmmamənizi çıxarın qoyun qabağınıza, ağlınızı başınıza yığın, qarşınızda kimlərin durduğuna yaxşı baxın".

**Millət vəkili Vüqar Bayramov da bildirib ki, Zəngilan Beynəlxaq Hava Limanı sayəsində 45 dəqiqəyə Bakıdan Şərqi Zəngəzura çatmaq mümkün olacaq. Deputat vurğulayıb ki, Azərbaycan 2 ildən qısa müddətdə işğaldan azad olunan ərazilərimizdə ikinci beynəlxalq hava limanını istifadəyə verib:** "Bu, ölkəmizin gücünü göstərməklə yanaşı, Qarabağ və Şərqi Zəngəzurun intensiv bərpa olunduğundan və eləcə də həmin bölgələrdə təhlükəsizlik tədbirlərinin daha da gücləndirildiyindən xəbər verir. Regionda baş verən iqtisadi və geo-siyasi dəyişikliklər işğaldan azad olunan ərazilərimizdə 3 hava limanına niyə ehtiyacın olduğunu bir daha təsdiq etdi. Hər 3 hava limanı bütün növ təyyarələri qəbul edə biləcək. Zəngilan Hava Limanı həm iqtisadi, həm də strateji baxımdan ən vacib layihələrdən biridir. Zəngilan iqtisadi və turizm baxımından böyük potensiala malik rayondur. Burada istehsal olunan məhsullar ölkəmizdə istifadə olunmaqla yanaşı, birbaşa xarici ölkələrə çıxarıla biləcək. Zəngilan Hava Limanı yaxın gələcəkdə istifadəyə veriləcək Zəngəzur dəhlizinə inteqrasiya olunacaq.

Bundan sonra hava limanı şərq-qərb, şimal-cənub nəqliyyat dəhlizlərinin də elementinə çevriləcək. Bu da Zəngilan daxil olmaqla həmin ərazilərimiz vasitəsi ilə daşınan beynəlxalq yüklərin həcminin artmasına və Azərbaycanın daha çox gəlir əldə etməsinə imkan verəcək. Şərqi Zəngəzurda turizm potensialı yüksək olduğundan bu hava limanının tikilməsi yerli və beynəlxalq uçuşlar baxımından əhəmiyyətlidir".

**İsmayıl Qocayev**

---

# Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın tələbini rədd edib




**Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın Məhkəmənin 7 dekabr 2021-ci il tarixli qərarında dəyişiklik edilməsi barədə tələbini rədd edib.**

APA xəbər verir ki, bu barədə Beynəlxalq Ədalət Məhkəməsinin mətbuat xidməti məlumat yayıb.

Məlumatda bildirilib ki, 12 oktyabr 2022-ci ildə Beynəlxalq Ədalət Məhkəməsi İrqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın tətbiqi (Ermənistan Azərbaycana qarşı iş üzrə) ilə bağlı işdə müvəqqəti tədbirlərin alınması ilə bağlı Məhkəmənin 7 dekabr 2021-ci il tarixli qərarında dəyişiklik edilməsi barədə Ermənistanın tələbi ilə bağlı qərar verib.

Həmin Məhkəmənin ötən ilin dekabrındakı qərarına dəyişikliklə bağlı Ermənistan tərəfinin müraciəti 16 sentyabr 2022-ci ildə Reyestrdə qeydə alınıb: "Məcburi qüvvəyə malik olan 12 oktyabr 2022-ci il tarixli qərarında Məhkəmə "2022-ci ilin sentyabrında tərəflər arasında baş vermiş hərbi əməliyyatlar və erməni hərbi qulluqçuların saxlanılması Məhkəmənin 7 dekabr 2021-ci il tarixli qərarında dəyişiklik edilməsinə əsas verən vəziyyət yaratmır".

# Paris polisi Tufanyanı həbs edib

## Fransada Azərbaycan səfirliyinə hücuma görə bir nəfər saxlanılıb

**Fransada Azərbaycan səfirliyinə hücum edən şəxslərdən biri saxlanılıb.**

**Bu barədə cümə axşamı fransız tarixçisi Maksim Qauin özünün "Twitter" hesabında bildirib.**




Onun sözlərinə görə, bu gün səhər saatlarında Paris polisi Daşnaksütyun erməni inqilabi federasiyasının Fransadakı gənclər şöbəsinin keçmiş sədri, 2015-ci ildə "Charjoum" dissident qrupunun yaradıcılarından biri olan Loris Tufanyanı həbs edib.

"Yəqin ki, həbs Azərbaycan səfirliyindəki mədəniyyət mərkəzinə qarşı aksiya ilə bağlıdır", - M.Qauin deyib.

*Qeyd edək ki, bu ilin sentyabrında erməni radikal qruplaşması Azərbaycanın Fransadakı səfirliyinin mədəniyyət mərkəzinə basqın etməyə cəhd göstərib. Ermənilər mədəniyyət mərkəzinin binasına boya atıblar və polisin müdaxiləsi nəticəsində təxribatçılar hadisə yerindən uzaqlaşdırılıb.*

# İranın xarici işlər naziri İrəvana etiraz etdi

## Abdullahiyan: İran Ermənistanda xarici qüvvələrin mövcudluğunun əleyhinədir

**"Biz Ermənistanın təhlükəsizliyinə İranın təhlükəsizliyi kimi baxırıq".**



APA xəbər verir ki, bunu İranın xarici işlər naziri Hüseyn Əmir-Abdullahiyan İrəvanda erməni həmkarı Ararat Mirzoyanla görüşü zamanı deyib.

"Mən məmnunam ki, bu səfər zamanı İranın Qafandakı Baş konsulluğunun yenidən açılmasının şahidi olacağıq. Bu inkişaf İran və Ermənistan ölkəsi arasında tarixi əlaqələrin dərinləşməsinin başqa bir səbəbidir", - o bildirib.

İran XİN rəhbəri, Qafqaz regionunda hər hansı geosiyasi sərhəd dəyişikliyinə qarşı olduqlarını açıq şəkildə bildirdiklərini vurğulayıb:

"Biz Ermənistanın təhlükəsizliyini İran İslam Respublikasının təhlükəsizliyi və regionun təhlükəsizliyi hesab edirik".

*Əmir-Abdullahiyan deyib ki, İran regionda, o cümlədən Ermənistanda xarici qüvvələrin mövcudluğunun əleyhinədir.*



# Türkiyə-Azərbaycan birliyi Zəfər çaldı

## İlham Əliyev: "Bu birlik bölgədə sülh və sabitlik faktorudur"

## Rəcəb Tayyib Ərdoğan: "Qarabağ yenidən çiçəklənir, bunu biz duyaraq deyil, görərək deyirik"

**"Azərbaycan və Türkiyə bütün xoş günlərdə bərabərdir". Bunu Cəbrayılda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla keçirilən təkbətək görüşdən sonra mətbuata bəyanatla çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bildirib. Dövlət başçısı deyib ki, bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Əziz qardaşımı Cəbrayılda, Zəngilanda salamlamaq, xoş gəlmisiniz demək mənim üçün böyük şərəfdir:**

"Bu gün biz Zəngilan Hava Limanının açılışını qeyd etdik. Bir il bundan əvvəl əziz qardaşımın iştirakı ilə Füzuli Hava Limanını bir yerdə açdıq. Bu gün Zəngilan Hava Limanını açdıq. Yəni bu onu göstərir ki, biz bütün xoş günlərdə bərabərik". Prezident deyib ki, Ağalı kəndində məktəbdə 70 uşaq oxuyur: "O uşaqların heç biri buranı görməyib. Hətta onların valideynləri də, bir çoxları işğal dövründə doğulub, bir çoxları işğal baş verəndə özləri uşaq idi. Amma onlar qayıdıblar. Çünki torpaq çəkir, Vətən çəkir. Hamımız qayıdacağıq. Bütün keçmiş məcburi köçkünlər qayıdacaq. Və biz onların qayıdışı üçün əlimizdən gələni edirik, gecə-gündüz çalışırıq. Və bərpa işlərində türkiyəli qardaşlarımız bizimlə bir yerdədir".

**"Biz qayıtmışıq, qan tökərək qayıtmışıq, savaşaraq, döyüşərək qayıtmışıq"**

**Dövlət başçısı deyib ki, əslində Cəbrayıl şəhəri yoxdur:** "Çünki





burada oturduğumuz yerdə binalar olub, insanlar yaşayıb, həyat qaynayıb. Amma erməni işğalı dövründə ermənilər bizim bütün şəhərlərimizi, kəndlərimizi yerlə bir etmişdilər. Cəbrayıl şəhərindən bu dağılmış binalar qaldı. Bu dağıntılar Birinci Qarabağ savaşında deyil, məhz işğal dövründə ermənilər tərəfindən törədilib. Görün nə qədər onlarda Azərbaycan xalqına qarşı nifrət var idi ki, bütün binaları yerlə-yeksan etdilər. Bunun əsas məqsədi ondan ibarət idi ki, azərbaycanlılar heç vaxt bu torpaqlara qayıtmasınlar, qayıtmağa yer olmasın. Ancaq biz qayıtmışıq, qan tökərək qayıtmışıq, savaşaraq, döyüşərək qayıtmışıq. Və bu gün artıq həyat bu bölgəyə qayıdıb. Ağalı kəndinin timsalında biz bunu görürük".

**"Bu gün biz bərpa edilən Qarabağda və Zəngəzurda yenə də Türkiyə-Azərbaycan birliyini görürük"**

**Prezident bildirib ki, Qarabağ və Şərqi Zəngəzur üçün önəmli bir gündür. Dövlət başçısı xatırladıb ki, bu gün Zəngilan şəhərinin işğaldan azad olunmasının ikinci ildönümüdür:** "Düz iki il bundan əvvəl erməni işğalına son qoyuldu. Azərbaycan Ordusu Zəngilan şəhərini azad etdi. Məhz belə bir gündə Türkiyə Prezidentinin Azərbaycanda, Zəngilanda və Cəbrayılda olması xüsusi məna daşıyır. Zəngilanın azad olunmasından bir neçə gün sonra Qubadlı erməni işğalından azad edildi və Azərbaycan Ordusunun bir qruplaşması Laçın istiqamətində irəliləməyə başlamışdı, digər qruplaşma isə Şuşaya istiqamət götürmüşdü. Və noyabrın 8-də alınmaz qala sayılan Şuşa erməni işğalından azad edildi, Azərbaycan bayrağı qaldırıldı və ondan sonra Ermənistan təslim oldu. Bütün bu şanlı tarix bizim müştərək tariximizdir. Çünki İkinci Qarabağ savaşının ilk saatlarından əziz qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana dəstək ifadə etdi, bildirdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu siyasi və mənəvi dəstək savaşın son gününə qədər davam edirdi. Bu bizə əlavə güc verirdi, bu, bəzi qüvvələrin bu məsələyə müdaxiləsinin qabağını alırdı. Və bir daha Türkiyə-Azərbaycan birliyi Zəfər çaldı. Və bu gün biz bərpa edilən Qarabağda və Zəngəzurda yenə də Türkiyə-Azərbaycan birliyini görürük".

**"Türkiyə kimi qüdrətli ölkə bizim qardaşımızdır, bu, böyük xoşbəxtlikdir"**

**Dövlət başçısı deyib ki, Türkiyə kimi qüdrətli ölkə bizim qardaşımızdır, bu, böyük xoşbəxtlikdir:** "Bu gün Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təntənəsidir. İkinci Qarabağ savaşı, savaşdan sonrakı dövr bu birliyi daha da gücləndirdi".

Prezident deyib ki, Türkiyə-Azərbaycan birliyi bölgədə sülh və sabitlik faktorudur: "Keçən il biz Şuşada Şuşa Bəyannaməsini imzaladıq və rəsmən Türkiyə və Azərbaycan bütün sahələrdə müttəfiq oldu. Bu həm xalqlarımıza ciddi gözaydınlığıdır, eyni zamanda, bölgəyə və dünyaya ciddi mesajdır. Çünki Türkiyə-Azərbaycan birliyi bölgədə çox önəmli faktordur. Bu, sülh və sabitlik faktorudur. Ancaq eyni zamanda, əgər kimsə yenə də bizə qarşı ədalətsiz hərəkət etmək istəsə, əlbəttə ki, bu faktoru ciddi nəzərə almalıdır".

**"Azərbaycan-Türkiyə hər zaman olduğu kimi, bir yerdədir və bir yerdə olacaq"**

**Prezident deyib ki, Azərbaycan-Türkiyə hər zaman olduğu kimi, bir yerdədir və bir yerdə olacaq:** "Əziz qardaşımın liderliyi sayəsində Türkiyə son illər böyük, uğurlu yol keçib, dünya miqyasında güc mərkəzinə çevrilib". Dövlət başçısı deyib ki, Türkiyədəki sabitlik, inkişaf göz qabağındadır: "Bu gün dünyanın bir çox ölkələrində böhran yaşanır, kriz yaşanır. Ölkələr idarəolunmaz vəziyyətə düşür. İqtisadi çətinliklər, sıxıntılar insanların haqlı etirazına səbəb olur. Türkiyə isə inamla irəliləyir, böyük layihələr həyata keçirir. Bölgədə söz sahibidir, dünyada önəmli güc mərkəzidir və hər kəs bununla hesablaşmalıdır. Hər kəs bilməlidir ki, bu uğurların səbəbkarı mənim qardaşım Rəcəb Tayyib Ərdoğandır".

**"Hər yerdə Azərbaycan və Türkiyə bayraqları bir yerdə dalğalanır"**

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanda Rəcəb Tayyib Ərdoğana çox böyük hörmət, məhəbbət var: "Bunu Azərbaycana gələn hər bir insan görür. İkinci Qarabağ savaşından sonra Türkiyə-Azərbaycan qardaşlığı, birliyi daha da yüksək pilləyə qalxıb. Yəqin ki, siz də görürsünüz: hər yerdə Azərbaycan və Türkiyə bayraqları bir yerdə dalğalanır. Bu, ürəkdən gələn duyğulardır, bu, əcdadlarımızdan qalan mirasdır, onların vəsiyyətidir və bu, zəmanəmizin tələbidir. Və bu gün əziz qardaşımın böyük heyətlə, hökumət nümayəndələri ilə burada olması bir daha onu göstərir ki, biz hər zaman olduğu kimi, bir yerdəyik və bir yerdə olacağıq".

**"Belə hava limanı inşa etmək hər ölkənin bacaracağı iş deyil"**

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, belə hava limanını inşa etmək hər ölkənin bacaracağı iş deyil.** ATƏT və digər beynəlxalq təşkilatların Ermənistanın törətdiyi vəhşilikləri görməzdən gəldiklərini söyləyən Türkiyə Prezidenti deyib ki, Beynəlxalq Ədalət Məhkəməsində Azərbaycanın iddia irəli sürməsi lazımdır: "Prezident İlham Əliyevin rəhbərliyi ilə bu bölgələr yenidən qurulur, yenidən bir Azərbaycan inşa edilir. Biz bunları bu gün yaşayırıq, duyaraq deyil, görərək bunları bildiririk. Azərbaycan adətən küllərindən doğaraq yenidən ayağa qalxır. Bu hava limanları Qarabağın azad edilməsindən sonra Qarabağın çiçəklənməsinin bir göstəricisidir".

**"Azərbaycanlı qardaşlarımızın torpaqlarına qayıtmağa başlaması bizi sevindirir"**

**Ərdoğan qeyd edib ki, azərbaycanlı qardaşlarımızın torpaqlarına qayıtmağa başlaması bizi sevindirir. Türkiyə prezidenti deyib ki, Ağalı bir kənd deyil, bir şəhərə çevrilir:** "Bir il əvvəl təməlini atdığımız aqropark da kənd təsərrüfatının necə inkişaf etdirildiyini göstərir. Yolda gələrkən dəyərli qardaşım İlham Əliyev bəzi məsələləri mənə danışdı. Bunlardan biri su məsələsidir. Burada qısa müddətdə tikiləcək su anbarı ilə kənd təsərrüfatının inkişafında böyük uğurlar əldə ediləcək. Ot tayalarının aqroparkda yığılması da artıq bu inkişafın bir göstəricisidir. Artıq minaların yerlərini bunlar alır. Bir il sonra Cəbrayıl yolunun da fərqli, müasir formada olacağını görəcəyik. Bir il ərzində bu gün təməlini atdığımız dəmir yolu da sürətlə inşa olunacaq ". Rəcəb Tayyib Ərdoğan qeyd edib ki, ağıllı kənd və şəhərlər, o cümlədən infrastruktur layihələrində Azərbaycanın yanında olmağa hazırdırlar.

**"Zəngəzur dəhlizi ilə bağlı qorxu və narahatlıq yersizdir"**

**Ərdoğan vurğulayıb ki, Zəngəzur dəhlizi ilə bağlı bəzi dairələrdəki qorxu və narahatlıq yersizdir:** "Azərbaycan əmin addımlarla yoluna davam edir: "Zəngəzur dəhlizi Orta Dəhlizdəki bütün ölkələr üçün inkişaf və sərmayə imkanlarını təqdim edəcək". Gələn il Türkiyə Cümhuriyyətinin və Heydər Əliyevin 100 illiyinin olduğunu xatırladan Rəcəb Tayyib Ərdoğan Heydər Əliyevə hörmətini ifadə edib: "Yaşasın Türkiyə-Azərbaycan qardaşlığı!".

**İsmayıl**

# Zəngilanda bərpa-quruculuq işləri sürətlənir

## Ağalı kəndinin ilk sakinləri doğma torpaqlarında məskunlaşmağa başlayıblar



**Xəbər verdiyimiz kimi Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Zəngilan şəhərində ilk yaşayış binasının təməlqoyma mərasimində iştirak ediblər. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlət başçısına və birinci xanıma binanın daxil olduğu yaşayış məhəlləsi barədə məlumat verib.**

Bildirilib ki, ümumi sahəsi 2.06 hektar olan yaşayış məhəlləsinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Məhəllə Zəngilan şəhərinin mərkəzi küçəsində, məktəb və biznes zonanın yaxınlığında yerləşəcək, şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun olacaq. Bu məhəllədə ümumilikdə 10 bina tikiləcək. Bunlardan 6-nın ikimərtəbəli, 4-nün isə üçmərtəbəli olması planlaşdırılır. Məhəllədəki binaların inşasında modern və minimalistik memarlıq yanaşmalarından, həmçinin milli naxış elementlərindən də istifadə ediləcək. Tədbirdə yaşayış məhəlləsi barədə videoçarx nümayiş olunub. Sonra Prezident və birinci xanım Mehriban Əliyeva Zəngilan şəhərində məktəb binasının təməlqoyma mərasimində iştirak ediblər. Elm və təhsil naziri Emin Əmrullayev dövlət başçısına və birinci xanıma 960 şagird yerlik tam orta məktəbin binası ilə bağlı məlumat verib. Bildirilib ki, Zəngilan şəhərinin mərkəzində, yaşayış kompleksinin yaxınlığında inşa olunacaq məktəbin ərazisi 1,6 hektar sahəni əhatə edəcək. Üçmərtəbəli məktəb modul siniflərdən, böyük amfiteatrdan, açıq sinif otaqlarından, oyun, idman meydançalarından və giriş hissədən ibarət olacaq. Qeyd edək ki, Prezident İlham Əliyev 2022-ci il sentyabrın 7-də Zəngilan şəhərində məktəb binasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Prezident və birinci xanım Zəngilanda Arximed turbini tipli Su Elektrik Stansiyasının işə salınması mərasimində də iştirak ediblər. Kənd təsərrüfatı naziri İnam Kərimov dövlət başçısını və birinci xanımı stansiya barədə məlumatlandırıb. Qeyd olunub ki, Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsi çərçivəsində keyfiyyətli ekoloji mühitin yaradılması və enerjidən səmərəli istifadə edilməsi üçün dayanıqlı enerji mənbələrinə üstünlük verilib. Bu baxımdan, kəndin dayanıqlı enerji ilə təmin edilməsi üçün Həkəri çayı üzərində Almaniyanın "Rehart GmbH" şirkəti tərəfindən istehsal olunan və hər biri 212 kilovat olmaqla 3 hidravlik turbindən və müvafiq hissələrdən ibarət Arximed turbini tipli Su Elektrik Stansiyası inşa edilib. Üç ədəd generatorun quraşdırıldığı stansiya Ağalı kəndinin elektrik enerjisinə tələbatını tam təmin etmək gücünə malikdir. Arximed qurğusunun digər enerji istehsal sistemləri ilə müqayisədə ən böyük üstünlüyü ondan ibarətdir ki, təzyiqsiz sudan enerji istehsal edə bilir, asan quraşdırılır və iqtisadi baxımdan sərfəlidir. Daha sonra Prezident İlham Əliyev Stansiyanı işə salıb. Diqqətə çatdırılıb ki, balıqların Arximed turbinlərinin içindən keçə bilməsi və elektrik enerjisinin balıq ölümünə səbəb olmadan istehsal edilməsi ətraf mühitin qorunması baxımından xüsusi əhəmiyyətə malikdir. Qeyd edək ki, Arximed turbinlərinin istismar müddəti 50-60 il proqnozlaşdırılır. Həmin gün prezident və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunun Ağalı kəndində də olublar. Dövlət başçısı və birinci xanım Ağalı kənd orta məktəbinin şagird-müəllim kollektivi ilə və sakinlərlə görüşüblər.

**Millət vəkili Ceyhun Məmmədov "Şərq"ə deyib ki, Zəngilan şəhəri yeni dirçəliş dövrünə qədəm qoyub.** Deputat vurğulayıb ki, XIX əsrin əvvəllərində Rusiyanın Cənubi Qafqazı işğal etməsindən sonra yeni ərazi-inzibati bölgüsü aparılıb. 1868-ci ildə Yelizavetpol quberniyası, onun tərkibində də Şuşa, Yelizavetpol və Zəngəzur qəzaları yaradılıb. Yeni bölgüyə əsasən Zəngilan rayonunun ərazisi Zəngəzur qəzasına daxil edilib: "1920-ci ilin 28 aprel işğalından sonra bolşeviklərin köməyi ilə qədim türk torpaqları hesabına ilk dövlətlərini quran ermənilər Zəngəzur qəzasını işğal ediblər. Bu zaman bolşevik Rusiyasının təkidi ilə Zəngəzur Azərbaycanın əlindən alınaraq, Ermənistana birləşdirilib. Nəticədə, qəzanın yuxarı hissəsi Ermənistanın, Laçın, Qubadlı və Zəngilan bölgələri isə Azərbaycanın tərkibində qalıb. 29 oktyabr 1993-cü ildə Ermənistan silahlı qüvvələri Zəngilan rayonunu işğal etdilər. Zəngilan rayonu coğrafi mövqeyinə, torpaq və iqlim xüsusiyyətinə görə füsunkar gözəlliyə, zəngin təbiətə malikdir. Rayonun ərazisi orta və alçaq dağlıq səhədə yerləşərək mürəkkəb və dərəli-təpəli səth quruluşuna malikdir. İşğala qədər rayon kənd təsərrüfatı, əsasən tütünçülük və üzümçülüklə məşğul idi. Heyvandarlıq, ipəkçilik, taxılçılıq da inkişaf etmişdi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 27 ildən sonra oktyabrın 20-də rəşadətli Azərbaycan Ordusu Zəngilan rayonunu düşməndən azad etdi. Artıq uzun illər doğma yurdundan didərgin düşən zəngilanlılar torpaqlarına geri qayıdırlar. Çoxsaylı təməlqoyma mərasimləri də göstərir ki, Zəngilanda bərpa-quruculuq işləri sürətlə davam edir. Birinci pilot layihə Zəngilanda Ağalı kəndində icra edildi. May ayında Ağalı kəndinin ilk sakinləri doğma torpaqlarında məskunlaşmağa başlayıblar. Bu gün Ağalı ağıllı kəndi dünyanın ən müasir kəndlərindən biridir. Burada insanların yüksək səviyyədə yaşayışı üçün hər cür şərait yaradılıb".

**İsmayıl**





# Əhməd Cavadın Şəmkirdə 130 illik yubileyi qeyd olunub

## Azərbaycan Türk Ocağının silsilə tədbirləri davam edir

**Azərbaycan Türk Ocağı İctimai Birliyi Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə istiqlal şairi, Turan aşiqi Əhməd Cavadın 130 illik yubileyi tədbirlərini Şəmkirdən başlayıb.**

**Azərbaycan Türk Ocağı İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru Akif Aşırlı bildirib ki, Şəmkirdə rayon ziyalıları, fəallarla maraqlı görüş baş tutub:** "Şəmkirlilər rayonda Əhməd Cavadın ev muzeyinin yaradılması təşəbbüsünü qaldırdılar. Bu istəkdə israrlı görünürlər. Əsasən, gənclər bu məsələni qabardır, böyük həmyerlilərinin haqqını istəyirlər. Filologiya elmləri doktoru, professor Bədirxan Əhmədov, Gəncə Dövlət Universitetinin tarix fakültəsinin müəllimi, tarix üzrə fəlsəfə doktoru, dosent Cavid Bağırzadə görüşdə maraqlı cıxışlar etdilər. Diskussiya şəraitində keçirilən görüş yaddaqalan oldu".

A.Aşırlı məlumat verib ki, sabah (bu gün) saat 14:00-da Gəncə Dövlət Universitetinin akt zalında növbəti görüş olacaq.

**İsmayıl**

# Liz Trass istefa verdi

## İngiltərədə 2-ci Dəmir Ledi dövrü ay yarım çəkdi



**İngiltərədə ay yarım əvvəl baş nazir seçilən Liz Trass, açıqladığı iqtisadi siyasətə reaksiyalardan sonra istefa verib.**

Britaniyanın 3-cü qadın baş naziri Liz Trass Marqaret Tetçerdən sonra 2-ci Dəmir Ledi adlandırılıb. Trassın hakim Mühafizəkarlar Partiyasının yeni lideri seçilənə qədər baş nazir kimi keçidə rəhbərlik edəcəyi gözlənilir.

Liz Trassın istefası barədə İngiltərə kralı III Çarlzı məlumatlandırdığını bildirib.

Altı həftə əvvəl vəzifəyə gələn Liz Trassın açıqladığı iqtisadi paketlər onun reputasiyasının sarsılmasına səbəb olub. Trassın kabineti Britaniya funtu rekord səviyyədə ucuzlaşdığı üçün istefa verib. Vergi paketləri açıqlananda funt-sterlinq ABŞ dolları qarşısında 1,0350 səviyyəsinə qədər bütün zamanların ən aşağı səviyyəsinə çatıb.

Böyük Britaniyanın Baş naziri istefaya getməzdən əvvəl maliyyə naziri olmuş Kvasi Kvartenqi vəzifəsindən azad etmişdi.

Mühafizəkarlar Partiyası artıq seçkinin qalibi olduğundan, yeni baş nazir bu partiyadan seçiləcək.

Liz Trass bildirib ki, Mühafizəkarlar Partiyasının yeni lideri bir həftə ərzində seçiləcək.

**Turan**

# Azərbaycan regionda böyük layihələrə imza atır

## Bunun sayəsində bir çox ölkələr əməkdaşlıqdan fayda götürə bilərlər

**Zəngilanın azadlığının 2-ci il dönümündə Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi olub. Açılışı Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan edib. Dövlət başçıları hava limanının rəsmi açılışını bildirən rəmzi qırmızı lenti kəsiblər.**



Türkiyə ilə birlikdə bölgəmizin sülh və əməkdaşlıq regionuna çevrildiyini deyən millət vəkili Asim Mollazadə "Şərq"ə açıqlamasında vurğulayıb ki, Zəngilanın azadlığından 2 il keçməsinə baxmayaraq orada hava limanının tikilməsi bunun ən böyük nümunələrindən biridir: "Bütün bunlar bizim yeni bir sistem formalaşdırdığımızı göstərir. Bunlar qitələri birləşdirən enerji və nəqliyyat sistemləridir. Bizə bölgədə sabitlik lazımdır ki, bu layihələr həyata keçirilsin.

Tərəfdaşlıq əsasında isə bir çox ölkələrin prosesə böyük maraqları var. Azərbaycan bu istiqmətdə beynəlxalq layihələrini maliyyələşdirmə sürətini artıraraq, prosesdə iştiraka dəvət edir.

Çünki bunların sayəsində bir çox ölkələr əməkdaşlıqdan böyük qazanc əldə edə bilər. Azərbaycan və Türkiyə isə sözügedən mühiti birlikdə yaradırlar.

Bütün bu layihələr həm də işğaldan azad edilmiş ərazilərin inkşafına və yenidən qurulmasına böyük töhfə verir".

**Nihat Müzəffər**

# Himayədarları təlimat verib

## Ermənistan genişmiqyaslı hərbi təxribata hazırlaşır



“Bu dəfə veriləcək sərt hərbi reaksiyadan Ermənistanı ABŞ, Fransa və Avropa Birliyinin mülki müşahidəçiləri xilas edə bilməyəcək”

**Ermənistanın sərhəd ərazisində təxribata hazırlıq gördüyü haqda daha bir görüntü yayılıb. Sosial şəbəkələrdə yayılan videolarda erməni hərbçilərdən ibarət yük maşınlarının sərhədə istiqamət aldığı aydın görünür.**

Qeyd edək ki, bundan öncə Azərbaycan MN Ermənistanın sərhədə artilleriya və canlı qüvvə yığdığını açıqlamışdı. Rəsmi Bakı yaşana biləcək növbəti qarşıdurmaya görə bütün məsuliyyətin Ermənistanın üzərinə düşəcəyini vurğulamışdı. Ermənistan MN isə bu faktı təsdiq edərək, ”cavab tədbiri” olduğunu bildirmişdi. Daha sonra isə sosial şəbəkələrdə muzdlu hərbçilərin və işlənmiş avtomobil şinlərinin sərhədə daşındığını əks etdirən görüntülər də yayılmışdı. Bəzi şərhçilərə görə, Ermənistan bu addımları ilə sərhəddə fəailiyyət göstərən AB-nin missiyasında Azərbaycanın ”təcavüzkar” fəaliyyətləri barədə rəy yaratmaq istəyir.

**Politoloq Elçin Xalidbəyli ”Şərq”ə bildirib ki, Ermənistanın genişmiqyaslı hərbi təxribatlara hazırlaşdığı artıq qətiyyən şübhə doğurmur. Ekspert vurğulayıb ki, böyük ehtimalla bu hərbi təxribatlar yenə də beynəlxalq himayədarların təlimatlarından qaynaqlanır:** ”Xüsusilə də, ABŞ və Fransanın Cənubi Qafqazda genişmiqyaslı hərbi münaqişədə maraqlı olduğunu düşünmək üçün ciddi əsaslar mövcuddur. Çünki Minsk Qrupunun fəaliyyətini dayandırmasından sonra bu iki ölkənin Cənubi Qafqazda hər hansı ciddi təsir mexanizmi qalmayıb. Yalnız Rusiyanın for-postu olan Ermənistanın ”sürüşkən xarici siyasət” davranışları ilə Cənubi Qafqazda yerləşmək mümkün deyil. Ona görə də ABŞ və Fransa Ermənistandan ”geopolitik alət” kimi istifadə edərək, Cənubi Qafqazda hərbi-siyasi qarışıqlıq yaratmaq və regiona yeni təsir mexanizmi formalaşdırmağa çalışırlar.

ABŞ və Fransa Cənubi Qafqazda yeni hərbi münaqişə ilə Rusiyanı regiondan tamamilə sıxışdırıb, çıxartmaq niyyəti güdür. İlk növbədə regional proseslərdən Rusiyanın kənarlaşdırılması, ardınca isə Ermənistanda olan Rusiya hərbi bazalarının çıxarılmasına nail olmaq əsas hədəf kimi görünür. Yəni Ermənistan bu prosesdə sadəcə, ”geopolitik alət” rolunu oynayır. Paşinyan hakimiyyəti ümid bəsləyir ki, əgər, ABŞ və Fransanın təlimatlarını yerinə yetirsə, Ermənistan üçün yeni geopolitik imkanlar açıla bilər. Rəsmi İrəvan ABŞ və Fransanın dəstəyini qazanmaqla, regional sülh prosesində daha sərfəli situasiya qazanmaq istəyir.

Digər tərəfdən, Paşinyan hakimiyyəti onu da anlayır ki, hərbi təxribatlar törətsə belə, Azərbaycanın hərbi qüdrəti qarşısında uzun müddət tab gətirə bilməz. İstənilən halda, ağır məğlubiyyətə məhkumdur”.

**E.Xalidbəylinin fikrincə, rəsmi İrəvanın hərbi təxribatları məhz ABŞ və Qərbin regiona siyasi müdaxilə cəhdlərinə paralellik təşkil edir:** ”Paşinyan hakimiyyəti sərhəd bölgəsində silahlı toqquşmalarla Ermənistanın təhlükəsizliyinə beynəlxalq təminat mexanizmləri yarada biləcəyini düşünür. Buna nail olmaqla, sülh danışıqlarında qüvvələr nisbətini balanslaşdırmağı planlaşdırır. Son günlər Paşinyan hakimiyyəti hətta bölgədə hələ rəsmən fəaliyyətə başlamamış Avropa Birliyinin mülki müşahidəçilərinin uzunmüddətli və yaxud daimi qalmasında maraqlı olduğunu qətiyyən gizlətmir. Ardınca isə bölgəyə beynəlxalq sülhməramlı qüvvələrin gətirilməsi ilə bağlı niyyətinin olduğunu da bildirir. Təbii ki, bütün bunlar Ermənistan üçün olduqca təhlükəli ”geopolitik oyunlar”dır. Çünki Ermənistanın ABŞ və Fransa üçün ”geopolitik alət” rolunu oynamasına Azərbaycan, Türkiyə və Rusiyanın verəcəyi reaksiya bu ölkənin gələcək taleyi baxımından, həlledici xarakter daşıya bilər. Hər halda ABŞ və Fransa regionda yerləşməyə çalışsa da, Cənubi Qafqazda Azərbaycan-Türkiyə İttifaqı və Rusiya əsas geopolitik iradə mərkəzləridir. Üstəlik, Ermənistanın ABŞ və Fransa üçün ”geopolitik alət” rolunu oynamasına münasibətdə Azərbaycan-Türkiyə İttifaqı və Rusiyanın maraqları böyük ölçüdə uzlaşır. Və bu, Ermənistan üçün sonun başlanğıcına çevrilə bilər”.

**Ekspertə görə, bütün bunları nəzərə aldıqda, Paşinyan hakimiyyətinin yeni hərbi təxribatlara hazırlaşması Ermənistan üçün bumerang effekti verə bilər:** ”Azərbaycan-Türkiyə İttifaqı və Rusiya Cənubi Qafqazı Ermənistanın himayədarlarına verməzlər. Zamanı çatanda ən sərt addımlar ata bilərlər. Yəni rəsmi İrəvanın növbəti hərbi təxribatlarının Ermənistan üçün sonuncu cəhd olacağı qətiyyən şübhə doğurmamalıdır. Bu dəfə veriləcək sərt hərbi reaksiyadan Ermənistanı ABŞ, Fransa və Avropa Birliyinin mülki müşahidəçiləri xilas edə bilməyəcək”.

**İsmayıl Qocayev**

# "Akıncı" Azərbaycanın gücünü qat-qat artıracaq

## Ermənistanın İrandan silah tədarük etməsi ciddi təhlükə deyil



**Ermənistan da İrandan pilotsuz uçuş aparatları (PUA) almaq istəyən ölkələr arasındadır. Bu barədə İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) keçmiş komandanı və İranın Ali Rəhbərinin hərbi məsələlər üzrə köməkçisi, general-mayor Yəhya Rəhim Səfəvi bildirib.**

O deyib ki, İran pilotsuz təyyarələrini almağa hazırkı namizəd ölkələr Ermənistan, Tacikistan, Serbiya, Əlcəzair, Venesuela və digər dövlətlərdir. Xatırladaq ki, bundan əvvəl Yəhya Rəhim Səfəvi 22 ölkənin İran istehsalı olan hərbi pilotsuz təyyarələrin alınması üçün rəsmi müraciət etdiyini bildirmişdi.

**Siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə deyib ki, əsas silah təchizatı Rusiya olan İrəvan 44 günlük müharibədə ağır zərbə alan hərbi arsenalını gücləndirmək üçün İran və Hindistan kimi üçüncü ölkələrə üz tutur:** ”İrəvanın hərbi baxımdan özünü bərpa etmək cəhdləri həm hazırda regiondakı proseslər, həm də perspektivdə yenidən təhdidlər yaratması baxımından Azərbaycana sərf etmir. Hərçənd, Azərbaycan Ordusunun arsenalında olan Türkiyə istehsalı ”Bayraktar” və İsrail istehsalı dronlarla müqayisədə İran dronları daha zəifdir. Xüsusilə dağ relyefində döyüşlərin aparılması baxımından əlverişsizdir. Türkiyənin yeni istehsalı olan ”Akıncı”nı hərbi arsenalımıza daxil etməyə hazırlıq da Azərbaycanın gücünü qat-qat artıracaq. Burada İranın Azərbaycana ”dua”, Ermənistana PUA göndərməsi siyasəti də yenidən gündəmə gəlir”.

**İsmayıl**

# Lənkəranda dini icma sədri məsciddə intihar edib

## Hadisənin baş vermə səbəbləri araşdırılır



**Lənkəranda dini icma sədri intihar edib.** APA-nın cənub bürosunun verdiyi məlumata görə, Lənkəran rayonunun Qurumba kənd məscidi dini icmasının sədri Hacıhəsən Babayev məscidin həyətindəki anbarda özünü asıb.

O, intihar etməzdən əvvəl məktub yazıb. Məktubda ”Heç kəsi incitməyin, nə ailəmi, nə də başqa birilərini. Heç kəsin günahı yoxdur, mən özüm edirəm” yazılıb.

Meyit müayinə olunması üçün Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Lənkəran rayon şöbəsinə aparılıb.İntiharın baş vermə səbəbləri araşdırılır.

# Birtərəfli missiya obyektiv ola bilməz

## ATƏT bir təşkilat kimi nüfuzunu çoxdan itirib

**Ermənistan Avropa İttifaqından sonra ATƏT-in missiyasını da ölkəsinə çağırmaq istəyir. Bu təşkilat guya 30 il münaqişənin ”sülh yolu ilə həlli” prosesi ilə məşğul olub.**

Bir dəfə işğal olunmuş ərazilərə missiya göndərməyib, fəaliyyəti yalnız 3 həmsədr və sədrin şəxsi nümayəndəsinin ezamiyyə pulları bölüşdürməsi, turist-qastrol səfərləri ilə kifayətlənib. Sual yaranır: Aİ missiya göndərirsə, ATƏT-ə nə ehtiyac var?

Çünki ATƏT-in missiya göndərməsi absurd addımdır və Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına xidmət etmir. Onların özündə də daxildə bu missiya ilə bağlı yekdil fikir yoxdur və bu məsələ razılaşdırılmayıb. ATƏT, ümumiyyətlə, heç bir münaqişənin nizamlanmasına töhfə verməyib. 30 il Ermənistan-Azərbaycan münaqişəsi ilə ”məşğul olublar”, nəticəsi göz qabağında. 2014-cü ildən Ukraynadakı münaqişənin nizamlanması ilə ”məşğul olublar”, amma bu gün orada da müharibə gedir.

**Azərbaycan və Ermənistanın ATƏT-in üzvü olduğunu deyən politoloq İlqar Vəlizadə ”Şərq”ə bildirib ki, bu təşkilat regiona missiya göndərməzdən əvvəl Azərbaycanla da məsləhətləşməli idi:**

”Çünki onların missiyası müşahidəçilik üçün gəlirsə, təkcə bir tərəflə yox, hər iki tərəfin vəziyyəti ilə maraqlanmalıdır. Təktərəfli müşahidədə obyektivlik də olmur. Ona görə də ATƏT-in bu addımı xeyli suallara yol açır.

Digər tərəfdən də bu təşkilatın Minsk Qrupu 30 il ərzində heç bir fəaliyyətlə məşğul olmayıb. Vaxtilə biz onların qiymətləndirici missiyasını Ermənistan tərəfindən dəymiş ziyanı ölçməyə və müəyyən nəticələr çıxarmağa dəvət etmişdik. Amma bu missiya regiona gəlməmişdi.

Prezident İlham Əliyev də demişdi ki, ”Minsk Qrupunun həmsədrləri dağıdılmış ərazilərdən keçirdilər, lakin dağıntılara heç bir qiymət vermirdilər”. Bəs indi nə oldu, onlar Ermənistan tərəfindən qiymət verməyə gəlirlər?

Bu hadisə bizi ATƏT-in nə dərəcə saxtakar qurum olduğu barəsində nəticə çıxarmağa vadar edir. Ermənistan isə missiya yarışına çıxıb və ”nə qədər missiya gəlsə, onların xeyrinədir” mövqeyində dayanır.

Əslində isə bu missiyalar obyektivliyi saxlamaq üçündür. Birtərəfli missiyaların nə dərəcədə obyektiv olacağını isə biz yaxşı başa düşürük”.




**Nihat Müzəffər**

# İran dronları Rusiyaya üstünlük qazandırır



**Tehranla Kremlin yeni oyun qaydaları Mərkəzi Asiya və Əfqanıstanda təzahür edə bilər**

**Oktyabrın 19-da səhər Rusiya qüvvələri Ukraynanın cənubundakı Nikolayev vilayətinə kamikadze dronları ilə zərbələr endirib. Bir həftədən çox davam edən hava zərbələri Ukraynada elektrik stansiyalarının üçdə birini dağıdıb, mindən çox şəhər və kənddə elektrik kəsilib. Ukrayna ordusunun cənub komandanlığının bildirdiyinə görə, ötən gecə 12 dron vurulub.**

Britaniya kəşfiyyatı Rusiyanın istifadə etdiyi dronların İran istehsalı olduğunu təsdiqləyib. Prezident V.Zelenski deyib ki, son bir həftədə Rusiyanın hava zərbələri Ukraynada elektrik stansiyalarının 30 faizini dağıdıb. Onun sözlərinə görə, Rusiyanın Ukraynaya hücumda İran istehsalı olan dronlardan istifadəsi onu göstərir ki, onillər boyunca hərbi-sənaye kompleksinə milyardlarla dollar xərcləməsinə baxmayaraq, Rusiya siyasi və hərbi baxımdan iflasa uğrayıb: "Nəticədə onlar sadə dronlar və raketlər əldə etmək üçün Tehrana boyun əydilər. Bu sadəcə, dünyaya bir daha Rusiyanın məğlubiyyətə doğru getdiyini, daha bir cinayət ortağını bu terrora cəlb etməyə çalışdığını göstərəcək. İran hökuməti "bunu biz etmədik" deyə bəyanat verdi. Ancaq aydın oldu ki, bunu İran vurub və İran hökuməti bu həqiqəti gizlətməyə çalışır. Bir neçə dəfə İran prezidenti ilə telefonla danışdım, müxtəlif səviyyələrdə müzakirələr oldu, ancaq əvəzində İran hökuməti nə etdi? Heç bir şey. İran Rusiya ilə ticarət edir, "Şahed" dronlarını və raketləri Rusiyaya satır". İran isə Rusiyaya dron vermədiyini deyir və iddiaları təkzib edir. Moskva da İranın kamikadze dronlarından istifadə edilməsindən xəbəri olmadığını bildirir. Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, İran pilotsuz uçuş aparatları ilə bağlı bəyanatlar ABŞ və tərəfdaşları tərəfindən Tehrana təzyiq göstərmək üçün istifadə olunur. Zaxarova İran PUA-ları ilə bağlı məlumatların dəfələrlə təkzib edildiyini xatırladıb və bunu şayiə adlandırıb: "Amerika mediasında bəzi müstəqil, adı açıqlanmayan qapalı mənbələr tərəfindən yayılan İran PUA-ları ilə bağlı şayiələr son günlər həm İran, həm də Rusiya nümayəndələri tərəfindən təkzib edilib. Həm bizə, həm də Tehrana qarşı irəli sürülən bu müəyyən iddiaları şərh etməyə ehtiyac varmı? Düşünürəm ki, yox, çünki bütün bunlar əsaslandırılmamış nəticələr və uzaq fərziyyələr toplusundan başqa bir şey deyil".

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə bildirib ki, ideoloji cəhətlərlə Rusiya və İranın ortaq dəyərləri çox az olsa da, hər ikisi Qərbə qarşı kütləvi qəzəb püskürən dövlətdir. Analitik deyib ki, bu səbəb İranın Rusiya-Ukrayna müharibəsində birincinin yanında dayanaraq ona hərbi yardım etməsi, xüsusilə kamikadze dronlar verməsi ilə nəticələnir:** "Rusiyanın pilotsuz təyyarələri necə alması və ya onlara nə əlavə etdiyi barədə çox şey məlum deyil. Amma Ukraynada qəzaya uğrayan, vurulan dronların qalıqlarından aydın olur ki, Rusiyada İran istehsalı olan yüzlərlə pilotsuz təyyarə var. Aşkardır ki, İran Rusiyanın başqa dövlətlərin ərazisinə tamah salmasına haqq qazandıran vasitələri öz təbliğatının məntiqinə sığışdırır. İslam Respublikasının Rusiyaya verdiyi zərbə dronları müqabilində Moskvadan nə istədikləri hələ bəlli deyil. Mümkündür ki, Tehran Moskva ilə Suriya mövzusunda Türkiyəni sıxışdıran razılığa gəlmək arzusundadır. Əməkdaşlıq edilə biləcək ikinci platforma Mərkəzi Asiya, üçüncü coğrafiya isə Əfqanıstandır. Cənubi Qafqaz regionuna münasibətdə isə Moskva Ankara və Bakı ilə isti münasibətlərini Tehranın maraqlarına qurban vermək xəttinə getməyəcək. Ukraynadakı müharibə İranın müdafiə sənayesindəki yeni silahların nümayişi baxımından önəmə mindirir, hərçənd ki, İran istehsalı olan dronlar Türkiyə və İsrailin eyni kateqoriyadan olan silahlarından qat-qat geridə qalır. Rusiyanın İran dronlarına ehtiyac duyması Tehranda belə inam yaradır ki, Moskva gələcəkdə İsraildən gələ biləcək təhlükələr barədə onu kəşfiyyat məlumatları ilə təmin edəcək. Ancaq Rusiyanın İranın düşməni olan İsraillə də yaxşı əlaqələri var. İnandırıcı deyil ki, Təl-Əvivin Tehrana qarşı kəşfiyyat oyunları barədə Moskva hər hansı məlumatları Tehrana ötürsün. İkinci, Rusiya kəşfiyyatı özü parçalanmış durumdadır və alternativ bilgi mənbələrinə çıxışı məhdudlaşıb".

Ekspertə görə, İran Rusiyanın qılığına girmək üçün Rusiyaya ballistik raketlər verilməsini də nəzərdən keçirir: "Hərçənd, bunun ikitərəfli münasibətlərin perspektivi üçün hansı üfüqlər açacağını dəqiqləşdirmək çətindir. Çünki Rusiya Qərbin İrana tətbiq etdiyi sanksiyalar siyasətinə qarşı prinsipial çıxışlar etmir. Sanki Moskva Tehranın əzilməsinə göz yummur və onun nüvə danışıqlarında ABŞ-a güzəştə getməsinə çalışır. Rusiya İran dronlarını sadəcə müharibədə üstünlük qazandırmaq vasitəsinə çevirir. Məqsəd Ukraynanın enerji infrastrukturuna zərbələr endirməklə Kiyevə qarşı təzyiqləri gücləndirməkdir.

Rusiya İrandan silahlar cəlb etməklə Qərbin Tehrana qarşı sanksiyalarını stimullaşdırmasına rəvac verir. Digər tərəfdən isə özü masadakı kartlarını gücləndirmək istəyir. İsrail İranın Ukraynadakı müharibədə dolayı iştirakına qarşı həmlələr edəcək. Lakin bu, Rusiya ilə gərgin münasibətlər yaradan səviyyəyə qalxmayacaq. İran dronları Ukraynadakı müharibənin gedişatına həlledici təsir göstərməyəcək, Ukrayna xeyli çətinliklərlə üzləşsə də, müqavimət göstərməyə davam edəcək. İranla Rusiyanın yeni oyun qaydaları Mərkəzi Asiya və Əfqanıstanda təzahür edə bilər. Bu isə Qərb üçün müşküllər siyahısını genişləndirəcək".

**İsmayıl Qocayev**




## 6 şikayətə baxıldı

Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının iclası keçirilib

**2022-ci il oktyabrın 19-da Azərbaycan Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının yeni tərkibdə ilk iclası keçirilib. Azərbaycan Mətbuat Şurasının sədr müavini, komissiya sədri Vüqar Ziferoğlu gündəlikdəki məsələlər barədə məlumat verib.**

Şuradan "Şərq"ə bildirilib ki, iclasda ümumən müxtəlif media orqanlarında yayımlanmış materiallarla bağlı altı şikayətə baxılıb. Şuranın Katibliyi tərəfindən şikayətçi və cavabdeh media orqanları ilə aparılmış söhbətlər, tərəflərin diqqətinə çatdırılmış anlaşma təklifləri və buna onların münasibətləri nəzərdən keçirilib, mövcud istiqamətdə fikir mübadiləsi aparılıb.

Müzakirələrdən sonra müvafiq rəylər çıxarılıb. Rəylərdə əsasən KİV-lərə qarşı tərəfin mövqeyinin işıqlandırılmasına saygılı yanaşmaq, ona öz fikirlərini çatdırmaq üçün şərait yaratmaq tövsiyə edilib. Komissiyanın müxtəlif məsələlərlə bağlı rəylərində həmçinin şikayətçi tərəfə aidiyyəti üzrə müraciət ünvanlamaq tövsiyəsi də yer alıb.

*Qeyd edək ki, prosedur qaydalara uyğun olaraq, bütün şikayətlər MŞ-nin İdarə Heyətində də müzakirəyə çıxarılacaq, onlarla əlaqədar yekun qərarlar İH tərəfindən qəbul ediləcəkdir.*

## Bu dəfə uzun çəkdi

İranda baş verən aksiyalar rejimi zəiflədəcək



**"İran hazırda çox gərgin siyasi səhnəyə malikdir".**

**Bunu "Şərq"ə açıqlamasında İranda tüğyan edən aksiyaları dəyərləndirən AĞ Partiya sədri Tural Abbaslı deyib.**

O bildirib ki, baş verəcəkləri proqnozlaşdırmaq çətin məsələdir: "İranda həmişə müxtəlif mövzular ətrafında etiraz aksiyaları keçirilir. Lakin rejim etirazları sakitləşdirməyi bacarır. Bu dəfə bir az uzun çəkdi.

Rejimin getməsi ilə nəticələnəcəyini düşünmürəm. Amma rejimi zəifləda biləcək aksiyadır. Qeyri-adi dəyişikliyin baş verəcəyini zənn etmirəm".

*Qeyd edək ki, Cənubi Azərbaycanın müxtəlif şəhərlərində yerli sakinlər günahsız şagird Əsra Pənahinin hökumət qüvvələri tərəfindən öldürülməsinə etiraz aksiyalarını davam etdirirlər.*

**Aygün Tahir**

# "ATƏT-in "missiya maraqları" arxasında Rusiya və Fransa dayanır"

"Ermənistanın yarıtmaz siyasəti səbəbindən bizim bölgənin təhlükəsizliyi ciddi təhdid altındadır"



**ATƏT-in Ermənistana missiya göndərməsi absurd addımdır və Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına xidmət etmir. ATƏT-in özündə də daxildə bu missiya ilə bağlı yekdil fikir yoxdur və bu məsələ razılaşdırılmayıb.**

30 il münaqişənin "sülh yolu ilə həllinə" çalışıb. Bir dəfə olsun işğal olunmuş ərazilərə missiya göndərməyib. Nəticə də göz önündədir. 2014-cü ildən Ukraynadakı münaqişənin nizamlanması ilə məşğul olublar. Amma bugünkü müharibə onların nə qədər "səy göstərdiklərinin" sübutudur.

**Siyasi şərhçi Əziz Əlibəyli "Şərq"ə açıqlamasında deyib ki, hazırda bölgədə nəticənin əldə olunması istiqamətində proses davam etdirilir. Onun sözlərinə görə, Ermənistanın durumu getdikcə ağırlaşır:** "İran da o cümlədən sərhədlərinə sığmaq fikrində deyil. Azərbaycan isə 10 noyabr Bəyanatının şərtinə görə, bölgənin Naxçıvan istiqamətində dəhliz istəyir.

Bütün tərəflər hansısa bir planın icrasına dair addımlar atmağa hazırlaşır. Bu da mütləq yeni konfiqurasiyanın ortaya çıxacağını deməyə əsas verir. Adını çəkdiyimiz konfiqurasiyada Avropa İttifaqı müşahidəçi missiyası ilə qoşulur, İranda təlimlər keçirilir.

Türkiyə-Azərbaycan bölgədədir. Amerika Nensi Pelosinin Ermənistana gedişi ilə başqa bir xətt yürüdür. Bu mənada digər tərəfdən də meydana çıxan ATƏT-in maraqları arxasında bəzən Rusiya, nə qədər imtina etsə də, hazırda Fransa var.

Sözügedən təşkilat öz missiyasını göndərmək istəyir.

Təbii ki, bütün bunlar müxtəlif güc mərkəzlərinin bölgədə qarşıdurmada iştirak etməsi ilə bağlı atılan addımlardır. Ermənistanın yarıtmaz siyasəti səbəbindən bizim bölgənin təhlükəsizliyi ciddi təhdid altındadır.

2020-ci ildə buna imkan vermədik. Amma indiki zamanda belə görünür ki, bölgədəki güclər, o cümlədən ATƏT həmin qarşıdurmada fəal iştirak etmək niyyətini reallaşdırmaq üçün belə bir missiyaya gərək duyur".

**Sücayət Mehti**

# İrəvanın addımlarının hüquqi əsası yoxdur

## Aİ-dən sonra ATƏT-ə müraciət edən Ermənistan bir növ Rusiyanın da əlinə oynayır



**ATƏT oktyabrın 21-27-də Ermənistan hökumətinin dəvəti ilə bu ölkəyə ehtiyacların qiymətləndirilməsi qrupu göndərəcək. Səfərin məqsədi ATƏT-in inteqrasiya olunmuş təhlükəsizlik konsepsiyası çərçivəsində onun mandatı və təcrübəsi əsasında müəyyən sərhədyanı ərazilərdə vəziyyəti qiymətləndirməkdir.**

Beynəlxalq ekspertlərdən və ATƏT Katibliyinin nümayəndələrindən ibarət texniki qrup Ermənistan-Azərbaycan şərti sərhədi boyu ərazilərə səfər edəcək, eləcə də yerlərdə beynəlxalq tərəfdaşlarla məsləhətləşəcək. ATƏT-in missiya göndərməsi absurd addım olduğundan, bu, Azərbaycan ictimaiyyətində birmənalı qarşılanmayıb. Çünki bunun Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına xidmət etmədiyi gün kimi aydındır. Azərbaycan ictimaiyyətində haqlı olaraq belə bir sual yaranır, əgər Avropa İttifaqı (Aİ) regiona missiya göndərirsə, ATƏT-ə nə ehtiyac var? Bu qurum 30 il ərzində bir dəfə də olsun işğal olunmuş ərazilərə missiya göndərməyib. Onun fəaliyyəti 3 həmsədr və sədrin şəxsi nümayəndəsinin turist-qastrol səfərləri ilə kifayətlənib. Nəticəsi isə göz qabağındadır. Həmçinin, 2014-cü ildən Ukraynadakı münaqişənin nizamlanması ilə də "məşğul olublar" və bu gün Şərqi Avropada savaş davam edir.

**“Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları” Mərkəzinin sədri, politoloq Samir Hümbətov ”Şərq”ə bildirib ki, Ermənistanın atdığı addımları məntiqlə əsaslandırmaq qeyri-mümkün olduğu kimi hüquqi əsasları da yoxdur. Analitik bildirib ki, Ermənistan-Azərbaycan dövlət sərhədində hansısa monitorinq mərkəzi müşahidə aparmaq niyyətindədirsə, burada mütləq rəsmi Bakının da razılığı olmalıdır:** ”Çünki nəticə etibarı ilə missiyanın müşahidə aparacağı bölgə, yer Azərbaycan əraziləridir. O baxımdan Azərbaycanla bu məsələnin razılaşdırılması, atılacaq addımların beynəlxalq hüquqa uyğunlaşdırılması zəruridir. Əlbəttə, beynəlxalq təşkilatların nə dərəcədə ədalətli və obyektiv olmasından xəbərdarıq. Son 30 il ərzində ikili standartlardan, Azərbaycana qarşı qərəzdən başqa heç nə görməmişik. Ermənistan sülh müzakirələrini pozmaq üçün bütün vasitələrdən istifadə edir. Avropa Birliyinin 40 nəfərlik ekspert qrupundan sonra İrəvanın başqa addımlar atacağı bəlli idi. ATƏT-lə kifayətlənməyən Ermənistan BMT-nin də missiyasını regiona dəvət edə bilər. Ancaq məsələ ondadır ki, istənilən qurum müşahidə aparacağı bölgəni çox yaxşı bilməli, öyrənməlidir. Əfsuslar olsun ki, Qərb ölkələri birmənalı şəkildə Ermənistanı dəstəkləyirlər. Xüsusən, Fransa Aİ üzvü və monitorinq qrupunda təmsil olunan dövlət kimi İrəvanın mövqeyini müdafiə edirlər. Düşünürəm ki, indiki məqamda Aİ-dən sonra ATƏT-ə müraciət edən Ermənistan bir növ Rusiyanın da əlinə oynayır. Moskvanı prosesdən tamamilə təcrid etməkdən ehtiyatlanır. Çalışır ki, ATƏT vasitəsi ilə Rusiyanı da regional oyunda saxlasın. Əslində Ermənistanın əsas niyyəti prosesləri bir-birinə qataraq gedişatı əngəlləmək və ləngitməkdir”.

**İsmayıl Qocayev**



# Biz torpaqlarımıza əbədi qayıtmışıq

## Prezidentin Ağalı kəndində şagirdlərlə söhbəti gənc nəsli ruhlandırır

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilanın Ağalı kəndində sakinlərlə görüşüblər. Görüşdə sakinlərlə bir sıra maraqlı dialoqlar olub. Ölkə rəhbəri şagirdlərə burda həyatın qaynayacağını bildirib:**

”Bir azdan başqa kəndlərdə də evlər tikiləcək, Zəngilan şəhərində də evlər tikiləcək. Ağalı birinci layihədir, siz də azad edilmiş torpaqlara ilk gələn uşaqlarsınız. Şadam ki, böyük həvəslə gəlmisiniz və sizin valideynləriniz də böyük həvəslə gəliblər”.

**”Həftə içi” qəzetinin redaktoru Sevinc Seyidova dövlət başçısı və birinci vitse-prezidentin Ağalı kənd sakinləri ilə görüşündən ”Şərq”ə danışarkən bildirib ki, bu, keçmiş məcburi köçkünlərimizin işğaldan azad edilmiş ərazilərimizə qayıdışında yeni səhifə açdı:** ”Dövlət başçısı Ağalı kəndindəki vəziyyətlə şəxsən tanış oldu. Sakinlərin qayğıları, qayıdışdan sonrakı hissləri ilə yaxından maraqlandı.

Xüsusilə Ağalı kənd orta məktəbində təhsil alan şagirdlərlə söhbət gələcək nəsillərin öz doğma el-obalarına bağlılığının hansı səviyyədə olduğunu göstərdi. Dövlət başçısının da vurğuladığı kimi artıq biz işğaldan azad edilmiş tarixi torpaqlarımıza həmişəlik qayıtmışıq. Bu ərazilərdə məskunlaşıb, qurub-yaradacağıq. Heç bir qüvvə bizi öz yolumuzdan döndərə bilməz.

Dövlət başçısının mütəmadi olaraq Ağalıya köçürülən sakinlərlə görüşməsi, Ağalıya bundan sonra da davamlı səfər edəcəyini bildirməsi kənd sakinlərinin dövlətinə, prezidentinə, ordusunun gücünə olan inamını daha da gücləndirdi”.

**Günəş Mərd**

# Azərbaycan, Türkiyə və Gürcüstanın ortaq maraqları var

## Xüsusi təyinatlıların birgə təlimləri regionda sabitliyin qorunmasına xidmət edir



**Azərbaycan, Türkiyə və Gürcüstan xüsusi təyinatlılarının ”Qafqaz Qartalı-2022” adı altında keçirilən birgə hərbi təlimləri başa çatıb. Gürcüstan Müdafiə Nazirliyinin məlumatına görə, Vaziani təlim bazasında keçirilən nümunəvi təlimləri bu ölkənin müdafiə qüvvələrinin komandanı, general-mayor Georgi Matiaşvili izləyib.**

Xüsusi təyinatlılar hava dəstəyi, paraşütlə tullanma, zirehli nəqliyyat vasitələri ilə hücum, binanın mühasirəsi kimi müxtəlif döyüş tapşırıqlarını icra edərək öz bacarıqlarını nümayiş etdiriblər. Hərbçilər ”AN-2” tipli təyyarələrdən paraşütlə tullanma elementlərini icra ediblər. Nazirlikdən bildirilib ki, ”Qafqaz Qartalı-2022” təlimlərinin məqsədi Azərbaycan, Türkiyə və Gürcüstanın xüsusi təyinatlı bölmələri arasında sinxronlaşdırma və koordinasiya imkanlarını dərinləşdirmək, təcrübə paylaşımı etmək, qarşılıqlı əməliyyat qabiliyyətini artırmaq və çoxmillətli mühitdə komanda və nəzarəti inkişaf etdirməkdir.

O da qeyd olunub ki, təlimlərdə iştirak edən xüsusi məqsədli qruplar atəş və tibbi təlimlər, məskun ərazilərdə döyüş əməliyyatları ilə bağlı təcrübə paylaşımı edəcəklər.

**Təlimləri ”Şərq”ə dəyərləndirən hərbi ekspert, ehtiyatda olan polkovnik Şair Ramaldanov bildirib ki, hər üç ölkənin Cənubi Qafqazda ortaq maraqları var:** ”Bu təlimlər birinci dəfə deyil. Bundan öncə də üçtərəfli təlimlər baş tutmuşdu. Bilirik ki, hər üç dövlət terrorçuluq mənbəyi olan bir ölkə ilə qonşuluq edir. Gedən proseslərdən bölgədə Ermənistanın gərginliyə səbəb olan fəaliyyətlərlə məşğul olduğunu görürük.

Digər tərəfdən isə Azərbaycanın bölgədə öhdəsinə götürdüyü yeni enerji layihələrinin və lojistik yolların açılması məsələsi var. Lakin müəyyən qüvvələrin prosesləri ləngitmək istəyi görünür. Ancaq gecikdirə biləcəklərini düşünmürəm. Bundan başqa təlimlərdə iştirak edən üç ölkədən də enerji kəmərləri keçir. Ona görə də bu manevrlər qaz və neft kəmərlərinin gələcəkdə birlikdə müdafiəsinə şərait yaradır”.

**Ekspert qeyd edib ki, təlimlər gələcəkdə həm antiterror əməliyyatları aparmaq üçün, həm də xüsusi təyinatlı qüvvələrin təcrübə mübadiləsi üçün çox vacibdir:** ”Çünki kəmərləri qorumaq üçün birgə fəaliyyət göstərmək lazım olacaq. Bunun üçün birlikdə təlim keçməliyik. Dünyada gedən geosiyasi vəziyyəti və regiondakı gərginliyi nəzərə alsaq, enerji kəmərlərinin gələcəkdə terrora məruz qalması ehtimalı güclüdür. Biz isə bu terrorçunu uzaqda axtarmamalıyıq.

Onlar bizim qonşuluqdadır. Ermənistan tərəfindən dəstəklənən və sifariş edilən terrorçu dəstələrin fəaliyyəti istisnazdır. Bu kimi manevrlər dövlətlər arasındakı hərbi dostluğu inkişaf etdirir. Düşünürəm ki, bizim qürur mənbəyimiz olan xüsusi təyinatlı qüvvələrin təlimdə iştirakı Gürcüstan üçün böyük avantajdır.

Çünki onlar müharibə təcrübəsindən çıxıblar və dünyada tanınırlar. Digər tərəfdən Türkiyənin xüsusi təyinatlılarının da zəngin antiterror təcrübəsi var. Hər şey bu üçlünün qazancına hesablanıb. Qazanc isə regiondakı sabitlik və sülhün qorunmasıdır”.

**Nihat Müzəffər**

### Çavuşoğlu Ermənistana missiya göndərilməsinin ATƏT prinsiplərinə zidd olduğunu bildirib



**Cəbrayılda səfərdə olan Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ”ATƏT-in ehtiyacların qiymətləndirilməsi missiyası”nın Ermənistana göndərməsi məsələsinə münasibət bildirib.**

APA xəbər verir ki, nazir jurnalistlərə açıqlamasında bildirib ki, burada konsensus olmalıdır.

”Azərbaycanın qərarı olmadan, Azərbaycandan razılıq alınmadan belə qərar verilməsi ATƏT-in iş prinsiplərinə ziddir. Belə gözlənilmədən qərarlardan imtina edilməlidir. Bunu şəxsi qərar olaraq görürük. Bu, ATƏT-in missiyası deyil. Çünki ATƏT-də qərar qəbuletmə yolları və mexanizmləri bəllidir. Belə qərarlarla bu iş həll edilə bilməz. Yəni davamlı sülh istəyiriksə, burada səmimi addımlar və beynəlxalq təşkilatların da səmimi dəstəkləri olmalıdır. Tək tərəfli addımlarla olmaz”, - Türkiyə XİN rəhbəri qeyd edib.

### Ermənistan Daşkəsən və Kəlbəcərdəki mövqelərimizi atəşə tutub

Oktyabrın 20-si saat 16:30-dan saat 17:35-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Günəşli və Yuxarı Şorca yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Daşkəsən rayonunun Astaf və Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı silahlardan fasilələrlə atəşə tutub. Bu barədə ”Şərq”ə Müdafiə Nazirliyindən məlumat verilib. Azərbaycan Ordusunun qeyd olunan istiqamətlərdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

# 1 milyon insan Bakını tərk edəcək

## Şəhər dərin nəfəs alacaq, tıxaclar azalacaq

**Son dövrlərdə paytaxt yollarındakı tıxaclar Bakı sakinləri üçün ciddi problemlərdən birinə çevrilib. Bakıda tikinti bumunun müşahidə olunması və şəhərin sıx şəkildə tikilmiş hündür binalarla dolması paytaxtda gərginliyi daha da artırıb. Nəticədə şəhər yolları iflic vəziyyətindədir.**

Ekspertlərin fikrincə, əhalinin Bakıya cəmləşməməsi, əksinə, paytaxta toplaşmış region əhalinin bölgələrə qayıtması üçün sosial-iqtisadi tədbirlər görülməlidir. Digər şəhərlərdə fabrik və zavodlar tikilməli, bəzi ali məktəblər başqa şəhərlərə köçürülməli, vaxtilə ləğv edilmiş nəqliyyat sistemləri - tramvay, trolleybus və elektrik qatarları - bərpa edilməlidir.

**Tıxacların hər şeydən əvvəl iqtisadi fəaliyyətə də neqativ təsir göstərdiyini vurğulayan millət vəkili, iqtisadçı Vüqar Bayramovun sözlərinə görə, tıxaclarda itirilən zaman həmçinin əksər hallarda iqtisadi dəyər yaratmayan vaxt intervalıdır.**

Deputatın fikrincə, infrastrukturun genişləndirilməsi vacibdir və bu istiqamətdə işlərin davam etdirilməsi təqdirəlayiqdir, lakin heç bir ölkə sadəcə inkişaf etmiş infrastruktur ilə tıxac problemini həll edə bilməyib, bu səbəbdən də digər və xüsusən dolayı hesab olunan tədbirlərə ehtiyac var: ”Əksər inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, iş saatlarının dəyişdirilməsi tıxacların aradan qaldırılması və sıxlığın azaldılması baxımından vacib hesab olunur. Əksər Qərb ölkələrində olduğu kimi dövlət, özəl və təhsil müəssisələrinin fərqli iş saatlarında işə başlaması və fərqli saatlarda işi başa çatdırması imkan verir ki, vətəndaşalar tıxacda az zaman sərf etsinlər. Bu da xüsusən avtomobildən istifadə edərək işə gələnlərin yanacağına qənaət deməkdir. Bakıda əksər dövlət və özəl sektor eyni vaxtda işə başlayır və iş saatı da eyni zamanda başa çatır. Bu da tıxacı artıran səbəblərdəndir. Bu baxımdan, dövlət sektorunun özəl sahəyə nisbətən daha tez işə başlaması və müqayisəli şəkildə əmək gününü daha tez bitirməsi tıxacları müəyyən qədər azalda bilər. Hətta dövlət sahəsində sektoral yanaşmanın da tətbiq edilməsi mümkündür. Oxşar mexanizm özəl sektor üçün də tövsiyə oluna bilər”.

*V.Bayramovun fikrincə, digər metod bir sıra təhsil müəssisələrinin növbəli şəkildə paytaxtdan kənara köçürülməsidir:* ”ABŞ-da aparıcı universitetlərin böyük əksəriyyəti kiçik şəhərlərdə yerləşir. Bu, iri şəhərlərdə tıxacın azaldılmasına xidmət etməklə yanaşı kiçik yaşayış məntəqələrinin də inkişafını stimullaşdırır”.

İqtisadçı hesab edir ki, ictimai nəqliyyatda xidmət keyfiyyətinin və tezliyin yüksəldilməsi Avropa ölkələrində tıxacın azaldılmasına xüsusi töhfə verib. Bakıda bu sahədə islahatların genişləndirilməsi və ictimai nəqliyyatdan istifadənin stimullaşdırılması olduqca vacibdir. ”Bütövlükdə, tıxacın azaldılması üçün alternativ metodlardan daha çox istifadə edilməsi olduqca vacibdir. Bir sıra ölkələrdə hətta bu problemin həlli üçün ayrıca proqramlar hazırlanıb və işçi qrupları fəaliyyət göstərir. Bu baxımdan, bu sahədəki tədbirlərin əlaqələndirilməsi və ünvanlığın artırılması tıxaclara qarşı mübarizəni gücləndirə bilər”- deyə deputat qeyd edib.



**Şəhərdəki bəzi zavod və fabriklər rayona köçürülə bilər**

**Sağlam Cəmiyyət Hərəkatının rəhbəri Elçin Bayramlı isə hesab edir ki, Qarabağın bərpası sürətləndikcə Bakıda müvəqqəti yaşayan qaçqın və köçkünlərin həmin bölgəyə yerləşdirilməsi Bakıdakı sıxlığı azalda bilər. Söhbət azı yarım milyon insandan gedir:** ”Digər bölgələrin də potensialından effektiv istifadə edilə bilər. Xammalın bol olduğu rayonlarda emal müəssisələri, xüsusən də yeyinti və yüngül sənaye müəssisələri açıla bilər. Bakıdakı bəzi zavod və fabriklər rayonlara köçürülə bilər. Bölgələrdə kiçik və orta sahibkarlığa yardımlar göstərilə, istehsal obyektləri üçün faizsiz kreditlər, vergi və gömrük güzəştləri verilə bilər. Bu da regionlarda iqtisadi canlanma yaradar, əks-urbanizasiya prosesi başlayar. Əgər əhalinin ölkə üzrə proporsional yerləşməsi, iqtisadiyyatın regional balanslaşdırılması baş tutsa, ölkəmizin davamlı və tarazlı inkişafı təmin olunar, bir çox sosial problemlər də aradan qalxar. Üstəlik, bütün bunlar ümumdaxili məhsulun və ixracın artmasına, idxalın azalmasına, dövlət büdcəsinin gəlirlərinin çoxalmasına, dövlətin sosial yükünün azalmasına gətirib çıxara bilər. Bu səbəbdən, hesab edirik ki, hökumət ”Kəndə qayıdış” proqramı elan etməli, regionların sosial-iqtisadi həyatının canlanmasına hər cür dəstək verməlidir. Bunun üçün müvafiq maliyyə ehtiyatları da kifayət qədərdir. Azərbaycanın 55 milyard dollarlıq strateji valyuta ehtiyatları var. Bunun cəmi 5 milyardını cəlb etməklə, həmçinin qeyri-dövlət investisiyalarını təşviq etməklə bu işləri həyata keçirmək olar. Nəticədə həm paytaxtımız nəfəs alar, həm də regionlar sürətli inkişaf edər”.

**Nəqliyyat üzrə ekspert Ərşad Hüseynov isə hesab edir ki, Bakıda tıxacların çoxlu səbəbləri var. Səbəblərdən bəzilərinin bilavasitə nəqliyyatla bağlılığı ilk baxışdan görünmür:** ”Bunlardan bir qrupu məskunlaşmadan, şəhərsalmadan irəli gələn səbəblərdir. Şəhərin daxili hissələrinin son illər ciddi sıxlaşdırıldığı, bəzi məhəllələrin beton cəngəlliyə çevrildiyi göz qabağındadır. Şəhər ətrafında, təxminən 20-25 il əvvələdək boş olan ərazilərdə isə cəngəlliksayağı, plansız məskunlaşma göz qabağındadır. Heç bir mobillik planı, yolnəqliyyat infrastrukturunun indiki və perspektiv vəziyyəti nəzərə alınmadan aparılan belə məskunlaşma səbəbindən insanlar elementar gündəlik ehtiyacları (işləmək, uşağı bağçaya və məktəbə aparmaq, normal alış-veriş etmək və s.) üçün kifayət qədər uzaq məsafəyə getməyə məcburdurlar. Üstəlik, həmin məskunlaşma zonalarında normal küçə-yol şəbəkəsi də salınmayıb. İctimai nəqliyyata əlçatımlıq da ki, bərbaddır. Nəticədə qaçılmaz tıxaclar yaranır”.

**Ekspertin sözlərinə görə, problemin bariz bir misalını MM-in son iclasında deputat Rauf Əliyev dilə gətirib:** ”Onun dediklərinə əsasən, məsələn, Binə qəsəbəsində 149 saylı məktəb 1350 şagird yerlik olsa da, orada 4483 şagird var, Buzovnadakı 26 saylı məktəb isə 2300 şagird yerlik olsa da, faktiki şagird sayı 4230-dur. Yəni məktəb çatışmazlığı var. Oxşar, bəlkə də daha betər vəziyyət Abşeron aqlomerasiyasının bütün yeni məskunlaşma ərazilərində - Xırdalanda, Masazırda, Hövsanda, Binəqədidə və s.-də də var. Bunun nəticəsində on minlərlə şagird həmin yaşayış məntəqələrindən şəhər daxilindəki məktəblərə gətirilir. Yeni məskunlaşma ərazilərində mövcud olan az sayda məktəblərin təlim-tədris prosesinin bəyənilməməsi səbəbindən xeyli valideynin şəhər məktəblərinə üstünlük verməsi bu işi bir az da ağırlaşdırır. Nəticədə şəhər girişlərində və xeyli küçələrdə tıxac yaranır. Tətil vaxtı həmin yerlərdə tıxacın olmaması, yaxud daha dözülən olması bunu aşkar təsdiq edir. Məsələnin həlli üçün ən azı bundan sonra məskunlaşma və sıxlaşmanın qarşısı alınmalıdır. Həmin ərazilərdə normal məktəblər tikilməli, müasir mobilliyə hesablanan infrastruktur yaradılmasına başlanmalıdır”.

**Şəymən**

## Binəli Yıldırım: "2023-cü il türklərin ili olacaq"



**”2023-cü il türklərin ili olacaq”. ”Report” xəbər verir ki, bunu Cəbrayılda jurnalistlərə açıqlamasında Türk Dövlətləri Təşkilatının (TDT) Ağsaqqallar Şurasının sədri, Ədalət və İnkişaf Partiyasının (AKP) müavini Binəli Yıldırım deyib.**

O vurğulayıb ki, ötən iki ilə qədər xarabaya dönmüş, 27 ildir tərk edilmiş, yerlə-yeksan olmuş bu torpaqlarda Beynəlxalq Hava Limanı açılıb:

”Daha sonra bölgəyə həyat, can gətirəcək ağıllı kənd təsərrüfatı açılıb. Bu torpaqların yenidən canlandırılması üçün təbiətə ceyranlar buraxılıb, ağaclar əkilib. Belə mötəbər gündə də dost və qardaş ölkələrin prezidentləri bir araya gəliblər. İşğaldan azad edilən ərazilərdə həyata keçiriləcək layihələrin, 1 milyon qaçqının öz ata yurduna geri dönməsi üçün nələr ediləcəyinin müzakirəsi aparılır”.

”Gələn il türklərin ili olacaq. Çünki Türkiyə Cümhuriyyətinin və ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ilidir. Fikrimcə, Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı daha da möhkəmlənəcək. Qardaşlarımızın sevincinə hər zaman ortaq olacağıq. Bir millət, iki dövlət şüarının da həqiqətə çevrildiyini günbəgün görməkdəyik”-, B.Yıldırım vurğulayıb.

# Hamıya pul paylamaq əks effekt verər

## Natiq Cəfərli: “Ona görə də biz ərzaq məhsullarının əlavə dəyər vergisinin 18 faizdən 2 faizə endirilməsini təklif edirik”

**”Hamıya pul paylamaq o qədər də uğurlu təklif deyil. Çünki əlavə pul kütləsi onsuz da yüksək olan inflyasiyanı daha da artıracaq. Yüz manatın dəyəri daha da aşağı düşəcək və insanlara qiymət artımı ilə geri dönəcək. Hamıya pul verməkdənsə, vergi və gömrük rüsumunu aşağı salmaq lazımdır. Bu, hamı üçün qazanc deməkdir”.**

*Bu sözləri iqtisadçı Natiq Cəfərli deyib. Ekspert bildirib ki, qiymətlər və inflyasiya aşağı salınmadıqca, nə sosial yardımların verilməsi, nə də maaş və pensiyaların artırılması fayda verə bilər. Əksinə, bu, indiki iqtisadi modeldə əks effekt doğuracaq:* ”Ona görə də biz ərzaq məhsullarının əlavə dəyər vergisinin 18 faizdən 2 faizə endirilməsini təklif edirik. Dərman vasitələri ilə bağlı gömrük rüsumlarının isə sıfırlanmasının tərəfdarıyıq. Bax, bu addımlar inflyasiyanın qarşısını alacaq və qiymətlərin aşağı enməsinə səbəb olacaq. Bu həm də insanların gözləntilərinə daha uyğundur. Biri var, dövlətin vəsaitini xərcləyərkən daha çox qiymət artımı ilə qarşılaşasan, biri də var ki, bugünkü qazancınla daha çox mal və ərzaq almağa imkanın olsun. Fikrimcə, ikinci versiya daha məntiqlidir. Bir sözlə, qiymətlərin aşağı salınması, inflyasiyanın qarşısının alınması üçün təcili olaraq vergi və gömrük rüsumlarında islahata ehtiyac var”.



**Ekspert vurğulayıb ki, həqiqətən də, doğuşun stimullaşdırılması, ailələrin sosial vəziyyətinin yaxşılaşdırılması üçün uşaqlara yardım proqramına ehtiyac var:** ”Azərbaycanda son illər doğuş sayı kifayət qədər sürətlə azalır. Bu da demoqrafik problemə səbəb ola bilər. Bu gün ailələr birinci uşağı özləri planlaşdırır, buna maddi olaraq da hazırlaşırlar. Ancaq növbəti uşaqlar maddi dəstək olmadığı təqdirdə ailənin büdcəsinə yük yaradır. Bir çox ailələr sosial problemlər səbəbindən ikinci, üçüncü uşaqları dünyaya gətirməyə çəkinirlər. Məhz həmin kateqoriyalara aid uşaqlara, yəni birinci uşaqdan sonra dünyaya gələn uşaqlara əlavə hər ay yüz manat verilməsi mümkündür. Azərbaycan iqtisadiyyatının buna kifayət qədər imkanı var”.

**İsmayıl Qocayev**

Məlahət Rzayeva

# Çörək, dadını görək!

## Əhalinin böyük əksəriyyəti keyfiyyətdən narazıdır



**Çörək bahalaşandan dəyəri də artıb. Çörək, onsuz da heç vaxt dəyərsiz olmayıb. Sadəcə, son illərdə çörək atılmasına çox rast gəlinirdi. Nə qədər ürək ağrıdıcı olsa da, zibil yeşiklərinin qarmaqlarından, dəmir borulardan sellofan paketlərdə asılan "lazımsız" çörəklərə rast gəlirdik. Qəribə burasıdır ki, bir çoxumuz "yediyiniz qədər, ehtiyac olduğu qədər çörək alın", deyib, çörəyi küçəyə "atanların" arxasınca deyirdik, amma çoxumuz da bu nankorluğa yol verirdik.**

Hərdən "yaxşı oldu, çörək bahalaşdı, indi qədri bilinər", deyirik, eyni zamanda boyük tərkibli, çoxuşaqlı ailələri, sosial təminatı aşağı səviyyədə olanların evi çörəklə təmin etməkdə çətinlik çəkdiyini də bilirik. Bugünkü mövzu çörəyin qiyməti deyil, keyfiyyətidir; bu gün 65-70 qəpiyə satılan zavod - hökumət çörəyinin keyfiyyəti. Əhalinin böyük əksəriyyəti çörəyin keyfiyyətindən narazıdır. Bir neçə il öncə mağazadan alınan çörəklər 2-3 gün istifadəyə yararlı qalırdısa, hazırkı çörəklər ertəsi gün artıq boyatlaşır. Qida mütəxəssisləri deyə bilər ki, əslində, orqanizmə boyat çörək daha faydalıdır, rahat həzm olunduğu üçün, nəinki yenicə sobadan çıxmış, isti, yumşaq çörək, amma çörək də gərək çörək olsun axı. Səhər aldığın çörək növbəti səhərə içi yapışqanlı, ələ yapışan şəkil alırsa, ovulub tökülürsə, mayanın tünd qoxusu burun dəlirsə, yeyiləsi olmayacaq və atılacaq. Çörək sexlərində nə qədər yoxlamalar aparılır, sahibkarlar cərimə edilir, yenə çörəyə layiq olduğu hörmət bəslənmir. Natəmiz sexlərdə, anti-sanitar şəraitdə, mövcud texnologiyaya əməl edilmədən bişirilən çörəklər oradan yenə də anti-sanitar şəraitdə, şəxsi avtomobillərin yük yerində, kiçiktutumlu yük avtomobillərinin salonunda daşınır və bu şəraitdə istehlakçıya çatdırılır.




### Bu gün 65-70 qəpiyə satılan zavod çörəyini bir gündən artıq saxlamaq olmur

Bu dəfə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi Şəmkirdə çörək istehsalı müəssisəsində nöqsanlar aşkarlayıb. Bu barədə AQTA-nın məlumatında bildirilir ki, nəzarət tədbirləri çərçivəsində Agentlik əməkdaşlarının Şəmkir şəhəri, Ş.Qurbanov küçəsində fəaliyyət göstərən Quliyev Sabir Məcid oğluna məxsus çörək istehsalı müəssisəsində apardığı plandankənar yoxlama zamanı qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların, sanitariya norma və qaydalarının tələblərinin pozulduğu müəyyən edib. Müəssisədə sanitar texniki və sanitar gigiyenik vəziyyətin qənaətbəxş olmadığı, texnoloji ardıcıllıq prinsipinin gözlənilmədiyi, işçi heyətin tibbi müayinədən keçmədiyi və xüsusi geyimlə tam təmin edilmədiyi, həmçinin müvafiq təmizlik işlərinin aparılmadığı aşkar olunub. Aşkar edilmiş nöqsanlarla bağlı müəssisə rəhbəri inzibati məsuliyyətə cəlb olunub, müəssisədə istehsalın dayandırılması ilə bağlı məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərar qəbul edilib. AQTA əhalinin sağlamlığının qorunması və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi üçün ardıcıl tədbirlərini davam etdirir və istehlakçı hüquqlarının pozulmasına yönəlmiş qanunsuz halların qarşısının alınması istiqamətində müvafiq addımlar atır. Xəbərə əlavə olunan fotolardan da sexdə çörəyin anti-sanitar şəraitdə bişirildiyi görünür. Təsəvvür edin ki, bu şəraitdə bişirilən çörəklər əhaliyə satılırmış!..

> "Çörək sexlərində nə qədər yoxlamalar aparılır, sahibkarlar cərimə edilir, yenə çörəyə layiq olduğu hörmət bəslənmir"

**Qida problemləri üzrə mütəxəssis Elsevər Fərzəliyev "Şərq"ə açıqlamasında çörəkbişirmə ilə bağlı dövlət standartının mövcud olduğunu bildirdi:**

- SSRİ dönəmində "QOST" dövlət standartı vardı, bütün qida məhsulları, istehsal məsələləri bu standartlara uyğun olmalıydı. O zaman da təbii ki, problemlər olurdu, standartlardan kənara çıxmalar baş verirdi, bəzən hökumət bunu müəyyənləşdirirdi, cəzalanırdı istehsalçılar. İndi isə artıq müstəqil Azərbaycanın öz dövlət standartları təsdiqlənib. Çörək istehsalı ilə bağlı da standartlar var. Məsələn, istehlakçıların yüksək keyfiyyətli (əla, 1-ci, 2-ci və kəpəkli un çörəyi) çörəklə təmin olunması üçün sərtləşdirilmiş tələbləri özündə ehtiva edən AZS 899:2021 "Buğda unundan hazırlanan çörək. Texniki şərtlər" dövlət standartı təsdiq edilib. Çörək bişirmə prosesində bu standartlara əməl edilməlidir. İndi vəziyyət belədir, kimsə əməl edir, kimsə etmir. AQTA nöqsanları aşkarlayır, cərimələr tətbiq edir. Lakin yenə də görürsən ki, hansısa müəssisədə standartlardan yayınma halları olur, çörəyi düzgün qaydayla bişirmirlər. Ona görə də çörək tez xarab olur, tez boyatlaşır. Alıcı da narazılıq edir. Bilirsiz, çörək bişirmək vicdan işidir. Çörək müqəddəs nemətdir və onu bişirib əhaliyə təqdim etmək öhdəliyi götürmüş şəxs - sahibkar, ya da müəssisə işə vicdanla yanaşmalıdır. Hamımız mağazadan, marketdən çörək alırıq. Alıcı çörəyin standarta uyğun bişirilib-bişirilmədiyini bilmir. Bunu yalnız texnoloqlar ayırd edə bilir. Yəni çörək ət deyil ki, təzə və ya köhnə olduğunu ayırd edə biləsən (çox zaman bu da mümkün deyil). Alıcı çörəyi, yaxud digər ərzağı istifadə etdikdə yaxşı-pis olduğunu anlayır. Onda da artıq gecdir. Düzdür, marketdən alınan istənilən məhsulu geri qaytarmağa istehlakçının haqqı var. Amma çörək elə bir ərzaqdır ki, çox nadir hallarda geri qaytarılır. Keyfiyyətsiz də olsa, bir qədər yeyilir, qalan hissəsi isə təəssüf ki, atılır. Ona görə də deyirəm ki, çörək bişirmək vicdan məsələsidir, onu bişirənin vicdanından asılıdır. Çörəyin keyfiyyəti olması bir neçə amildən asılıdır. Burda keyfiyyətli xammal, texnoloji əməliyyatların düzgün ardıcıllıqla aparılması, avadanlıqlar, bişirmə texnoloqlarının ixtisaslı, peşəkar olmaları əsas şərtlərdir. Çörək müqəddəs nemət olduğu üçün onun bişirildiyi yer tər-təmiz olmalıdır. Natəmiz yerdə bərəkət bişirilməz.





Mütəxəssis onu da qeyd etdi ki, insan orqanizmi mikronutriyetlər (*əvəzolunmaz qida maddələri*) sintez etməyə qadir olmadığı, orqanizm bu maddələri uzun müddət ehtiyat şəklində toplaya bilmədiyi üçün qida ilə mütəmadi olaraq təmin edilməlidir. Mikronutrientlərin çatışmazlığı yalnız əhalinin bir qrupu deyil, demək olar ki, bütün qruplarında müşahidə edilir. Bu səbəbdən də dünyanın bir çox ölkələrində un, makaron və çörək-bulka məmulatlarının, alkoqolsuz içkilərin, süd, südün turşuma məhsullarının, marqarin məhsullarının vitamin, mineral maddə və mikroelementlərlə zənginləşdirilməsi həyata keçirirlər. Aparılan tədqiqatlar nəticəsində məlum olub ki, çovdar və buğda unlarının qarışığı, ikinci növ buğda unundan hazırlanmış 100 qr-lıq çörək insan orqanizmini 9,3-11 faiz tiaminlə, 15 faiz niasinlər təmin etdiyi halda, əla növ buğda unundan hazırlanmış çörəkdə bu göstərici 6-7 faizdir. İstənilən undan hazırlanmış çörək insanın riboflavinə olan ehtiyacının 3,6-5 faizini təmin edir. Son zamanlar ekoloji mühitin korlanması ərzaq xammallarında tərkib və keyfiyyətin aşağı düşməsinə səbəb olub. Buna görə müasir insanın mikronutrientlərə tələbatı daha çoxdur. Bunları nəzərə alaraq çörəkbişirmədə bioloji aktiv və dadverici maddələrlə zənginləşmə, çeşid və xammaldan istifadənin yollarının artırılması nəzərdə tutulur. Məlum məsələdir ki, insanın gündəlik qəbul etdiyi qidalar arasında unlu məmulatlar xüsusi yer tutur. Bu da unlu məmulatların qidalılıq dəyərinin, çeşidlərin artırılmasını tələb edir. Mayalı xəmirin keyfiyyətini yüksəltmək üçün ona şəkər, yağ, üzvi turşular, pektin maddələri, mineral duzlar əlavə edirlər. Un məmulatlarına liflərin əlavə olunması bağırsaqlarda xolesterinin, radionukli diolidlərin, ağır metalların kənarlaşdırılmasına, bağırsaqda B qrup vitaminlərinin yaranmasını təmin edən mikrorqanizmlərin normallaşdırılmasına xidmət edir. 250-300 q çörək məmulatının (çörək, yarma, makaron) qəbulu nəticəsində insanın qidaya olan sutkalıq tələbatının 1/3 hissəsi ödənmiş olur.

*Mütəxəssis qeyd etdi ki, çörək tez köhnəlməsin, kiflənməsin deyə, onu sellofan paketlərdə deyil, kətan və ya kətan dəsmala bükūb saxlamaq lazımdır.* Çörək təmiz ağ kağıza və ya parçaya büküləndə quruması ləngiyir. Çörək qutusuna bir ovuc duz qoyduqda çörək uzun müddət təzə qalır, duz çörəyin keyfiyyətini qoruyur. Çünki duz nəmliyi, rütubəti özünə çəkir. Çörək qutusuna bir parça qənd, bir-iki dilim alma, soyulmuş kartof qoymaqla da çörəyi təzə saxlamaq olar. Bu məhsullar da rütubəti eyni səviyyədə saxlayacaq, artıq nəmi özünə çəkəcək. Xüsusən yay fəslində çörək tez xarab olmasın deyə onu soyuducuya qoyanlar da diqqətli olmalıdır. Çörək + 2 ° C temperaturda - yeni soyuducunun yuxarı rəfində tez köhnəlir. Bu şəraitdə ondan nəm buxarlanır və çörək bayatlaşır. Buna görə də çörək soyuducuda deyil, otaq temperaturunda və ya soyuducunun dondurucusunda saxlanmalıdır.



# 30 ilə yaxın susdurulan azanlar qiyamətədək oxunacaq

## Türk dövlətlərinin dini liderləri Şuşada bəyanat qəbul ediblər

**Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin müsəlman dini liderləri Şuşada birgə bəyanat qəbul ediblər. Birgə bəyanatda qeyd olunub ki, üzv dövlətlərdə din-dövlət münasibətlərinin təkmilləşdirilməsi üçün müvafiq qurumlar arasında əlaqələrin möhkəmləndirilməsi üçün müvafiq layihələr hazırlanacaq. Həmçinin, birgə elmi və dini mərkəzlər yaratmaq, tələb-müəllim və təcrübə mübadiləsinə kömək ediləcək.**

Sənəddə ziyarət turları təşkil edən təşkilatlar arasında təcrübə mübadiləsi üçün birgə işin aparılması da qeyd olunub. Şuşada TDT-yə üzv ölkələrin Müsəlman Dini İdarələrinin Rəhbərləri Şurasının Əsasnaməsi də imzalanıb. TDT-yə üzv ölkələrin müsəlman dini liderləri Qarabağ zəfərinin ikinci ildönümü münasibətilə İlham Əliyevə müraciət ünvanlayıb. Müraciətdə vurğulanıb ki, Azərbaycan xalqının möhtəşəm günlərini yaşadığı günlərdə Şuşada olmaq dini liderlər üçün böyük fəxarətdir: ”Bu qələbənin müəllifi, Qarabağ fatehi İlham Əliyevi səmimi qəlbdən təbrik edirik”. Daha sonra dini liderlər Şuşadakı Yuxarı Gövhər Ağa məscidində birgə namaz qılıblar. Onlar şəhidlərimizin ruhuna, eləcə də əbədi sülh və əmin-amanlıq naminə dualar oxuyublar.

### “Revanşizmə, nifrət və təxribatlara son qoyun!”

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə Şuşadan erməni kilsəsinə, Eçmiədzinə müraciət edərək revanşizmə, nifrət və təxribatlara son qoymalarını istəyib. O, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin müsəlman dini liderlərinin Şuşada keçirilən üçüncü görüşündə çıxışı zamanı erməni kilsəsinin rəhbərliyinin Xankəndiyə səfərlər edərək revanşist bəyanatlar səsləndirməsinin böyük təəssüf doğurduğunu bildirib: ”Bir əlində ”İncil”, bir əlində avtomat həyat deyil, ölümə, dinc birgəyaşayışa deyil, işğala, zülmə və zora xeyir-dua vermək dini dəyərlərlə bir araya sığmır, erməni xalqına vəd etdikləri səadət əvəzinə yeni faciələr gətirməkdədir. Nə qədər gec deyil, erməni kilsəsi Uca Yaradan qarşısında üzərinə düşən mənəvi missiyasını yerinə yetirərək, öz xalqının taleyini, ermənilərin tarixi müqəddəratını düşünərək müdriklik nümayiş etdirməli, xalqını məhvə sürükləmək əvəzinə, onu xilas edəcək, ona nicat və tərəqqi gətirəcək ideyalar təlqin etməlidir. Buradan, azad Şuşadan erməni kilsəsinə, Eçmiədzinə səslənirəm - revanşizmə, nifrət və təxribatlara son qoyun! Uca Yaradan qarşısında mənəvi borcunuzdan çıxış edərək ölümə, yeni müsibət və faciələrə deyil, həyata çağırın! Yalan vədlər deyil, məhz həqiqətləri demək sizin erməni xalqı qarşısında ən böyük tarixi xidmətiniz olar”.

### “Bu gün Şuşa türk-islam birliyinin mənəvi vəhdətinin rəsmiləşdiyi məkan kimi tarixə düşdü”

Allahşükür Paşazadə deyib ki, Şuşa türk-islam birliyinin mənəvi vəhdətinin rəsmiləşdiyi məkan kimi tarixə düşüb: ”Prezident İlham Əliyevin türk dünyasının ağsaqqalı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birgə imzaladıqları Şuşa Bəyannaməsi, heç şübhəsiz, mühüm tarixi əhəmiyyətli sənəddir. Bu gün Türk Dövlətləri Təşkilatı Müsəlman Dini İdarə Rəhbərləri Şurasının Əsasnaməsinin də Şuşada imzalanması, Birgə Bəyanatın qəbul edilməsi, öz növbəsində, Şuşanın adının tarixin salnaməsinə türk-islam birliyinin mənəvi vəhdətinin rəsmiləşdiyi məkan kimi daxil olması deməkdir. Biz, dini liderlər Birgə Bəyanatımızı türk-islam sivilizasiyasının qədim mərkəzlərindən biri olan, 2022-ci ildə Azərbaycanın, 2023-cü ildə türk dünyasının mədəniyyət paytaxtı elan olunmuş Şuşada qəbul etməklə müqəddəs dinimizə, ortaq tarix, mədəniyyət və adət-ənənələrimizə olan dərin ehtiramımızı bir daha bütün dünyaya nümayiş etdirmiş olduq. Türk Dövlətləri Təşkilatının qəbul etdiyi, özəlliklə, dini-mənəvi sahəyə dair qərar və tövsiyələrin həyata keçirilməsində fəal rol oynamaq əzmimizi bəyan etmiş olduq. Allahı, ”Qurani-Kərimi”, qibləsi bir olan, eyni dildə danışan qardaş xalqlarımızın dini-mənəvi müstəvidə birlik olması bizim ümumi, ortaq mənəviyyatımızın dünya miqyasında, beynəlxalq platformalarda yetkin, nüfuzlu qurum olaraq qəbul olunmağımızı təmin edəcək”.

### ”Ərdoğanın Zəngilan aeroportunun açılışında iştirakı bizlərə qürur bəxş edir”

QMİ sədri bildirib ki, Ərdoğanın Zəngilan aeroportunun açılışında iştirakı bizlərə qürur bəxş edir: ”Bugünkü Şuşa görüşümüz əlamətdar hadisə - işğaldan azad olunmuş Zəngilanda aeroportun açılışı ilə eyni günə təsadüf edir. Füzuli aeroportunun ardınca Qarabağın daha bir hava limanının açılış mərasimində Azərbaycan Prezidenti ilə bərabər, qardaşı - Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirak etməsi bizlərə qürur bəxş edir”. Onun sözlərinə görə, yenidən qurulan yollar, abad kənd və şəhərlər, hava limanları Azərbaycanın və ümumən türk birliyinin rifah və gələcəyinə xidmət edəcək: ”İslam və türk dünyasının tolerantlıq və multikulturalizm ənənələrinə sadiq Azərbaycan dövlətinin məscidlərlə yanaşı, kilsə və məbədlərə himayə və qayğısı türk mentalitetinin yüksək mənəvi statusunu dünya miqyasında əyani təsdiq edir. Bu gün azad Qarabağda dini-mənəvi abidələrin, məscidlərimizin nəfis şəkildə bərpası və yenidən qurulması sahəsində həyata keçirilən yüksək səviyyəli işlər möhtərəm prezidentimizin qətiyyətli siyasi iradəsinin və Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyevanın zəhmətlərinin nəticəsidir”.

### “Erməni Apostol Kilsəsi erməni revanşizminin önündə gedir, qisas təbliğatı aparır”

A.Paşazadə qeyd edib ki, erməni Apostol Kilsəsi erməni revanşizminin önündə gedir, qisas təbliğatı aparır: ”Erməni Apostol Kilsəsi erməni revanşizminin önündə gedir, qisas təbliğatı, beynəlxalq müstəvidə Azərbaycana qarşı qarayaxma kampaniyası aparır”. Onun sözlərinə görə, Azərbaycan xalqı minlərlə şəhidimizin qanı ilə öz əzəli torpaqlarını azad edərək tarixi ədaləti bərpa edib: ”Məscidlərdən azan səsləri ucalır, ata-baba torpaqlarımızda qurub yaradır və göz bəbəyimiz kimi qoruyuruq. İşğal dövründə müharibə cinayətlərindən çəkinməyən, Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədən, şəhər və kəndlərimizi məqsədyönlü şəkildə yer üzündən silən, torpaqları qəsdən yandırıb yararsız hala salan, su hövzələrimizi zəhərləyən, qəbiristanlıqları dağıdan, məscid və məbədlərimizi yerlə-yeksan edən erməni vandalizminin izlərini bütün dünya görür, basdırdıqları minalar bu gün də yüzlərlə mülki şəxsin həyatına son qoymaqda davam edir”.

### “Eçmiədzinə səslənirəm - revanşizmə, nifrət və təxribatlara son qoyun”

QMİ sədri erməni siyasi rəhbərliyinin son sərhəd təxribatları ilə bağlı vurğulayıb ki, vəziyyətə dini don geyindirmək cəhdləri qeyri-məqbuldur: ”Lakin həqiqət bundan ibarətdir ki, məhz erməni dini dairələri din adından nifrətə çağırışlar, qızışdırıcı bəyanatlar səsləndirməkdədirlər. Erməni Apostol Kilsəsi erməni revanşizminin önündə gedir, qisas təbliğatı, beynəlxalq müstəvidə Azərbaycana qarşı qarayaxma kampaniyası aparır. Uzun illər ərzində erməni siyasi liderlərin cinayətkar əməllərinə mənəvi haqq qazandıran erməni kilsəsinin rəhbərliyinin Xankəndiyə səfərlər edərək revanşist bəyanatlar səsləndirməsi böyük təəssüf doğurur. Bir əlində İncil, bir əlində avtomat, həyat deyil, ölümə, dinc birgə yaşayışa deyil, işğala, zülmə və zora xeyir-dua vermək dini dəyərlərlə bir araya sığmır, erməni xalqına vəd etdikləri səadət əvəzinə yeni faciələr gətirməkdədir. Nə qədər gec deyil, erməni kilsəsi Uca Yaradan qarşısında üzərinə düşən mənəvi missiyasını yerinə yetirərək, öz xalqının taleyini, ermənilərin tarixi müqəddəratını düşünərək müdriklik nümayiş etdirməli, xalqını məhvə sürükləmək əvəzinə, onu xilas edəcək, ona nicat və tərəqqi gətirəcək ideyalar təlqin etməlidir. Buradan, azad Şuşadan erməni kilsəsinə, Eçmiədzinə səslənirəm - revanşizmə, nifrət və təxribatlara son qoyun. Uca Yaradan qarşısında mənəvi borcunuzdan çıxış edərək ölümə, yeni müsibət və faciələrə deyil, həyata çağırın! Yalan vədlər deyil, məhz həqiqətləri demək sizin erməni xalqı qarşısında ən böyük tarixi xidmətiniz olar”.

### “Bu gün Zəngilan aeroportunun açılışı tarixi hadisədir”

Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Bağdad Amreyev deyib ki, bu gün Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasiminin keçirilməsi tarixi hadisədir: ”Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın həmin mərasimdə iştirakı hər birimiz üçün xoşbəxtlikdir. Bu gün türk dünyası bir-birinə yaxınlaşır”.

### “Azad olunan ərazilərdə susdurulan azanlar qiyamətədək oxunacaq”

Türkiyə Diyanət İşləri İdarəsinin rəhbəri Əli Erbaş bildirib ki, azad olunan ərazilərdə 30 ilə yaxın susdurulan azanlar qiyamətədək oxunmağa davam edəcək. Onun sözlərinə görə, TDT-yə üzv ölkələrin Müsəlman Dini İdarələrinin Rəhbərləri Şurasının Əsasnaməsinin Şuşada imzalanması çox mühüm hadisədir: ”Məsuliyyətimizin fərqindəyik. Birlikdə yaşamaq, sülh və əmin-amanlıq kimi dəyərləri insanlara çatdırmağa davam edəcəyik”.

**İsmayıl**

# Ankara beynəlxalq situasiyanı nəzərə alır

## Türkiyə Ukraynaya bəzi Avropa ölkələrindən daha çox dəstək verib

**Türkiyənin Milli müdafiə naziri Hulusi Akar deyib ki, Ukrayna məsələsində Türkiyəyə qarşı qərəzli mövqe tutmaq istəyənlər var. Onun sözlərinə görə, Türkiyə Rusiya-Ukrayna müharibəsi ilə bağlı balanslı siyasət yeridir:**

”Bunu digər tərəflər də başa düşməlidirlər. Bəziləri anlasa da, bəziləri Türkiyəyə qarşı qərəzli mövqe sərgiləyirlər”. Akar həmçinin xatırladıb ki, Türkiyə ilə məsafəli davranan ölkələr belə Ukrayna taxılının xarici bazara çıxarılması ilə bağlı əldə olunan razılığı alqışlayıb. Rusiya-Ukrayna müharibəsi başlayandan bu yana Türkiyə zaman-zaman ittihamlara məruz qalmaqdadır. Qardaş ölkə bəzən Ukraynaya daha ciddi dəstək verməməkdə, bəzən isə Rusiyaya daha çox yaxınlıq göstərməkdə suçlanır. **AĞ Partiyanın sədr müavini, politoloq Əhəd Məmmədli ”Şərq”ə bildirib ki, Türkiyənin Qərbin oyununa getməməsi və Rusiyaya qarşı məcburi formalaşdırılmış alyansda yer almaması ABŞ və Avropa Birliyini narahat edən əsas amildir.** Ekspert qeyd edib ki, Türkiyə ilk növbədə öz milli maraqlarını, daha sonra beynəlxalq situasiyanı nəzərə alır: ”Türkiyə Ukraynaya kifayət qədər dəstək verib. Hətta hazırda Rusiyaya qarşı sanksiya tətbiq edən bir sıra Avropa ölkəsindən daha çox Kiyevə yardım əli uzadıb. Təkcə ”Bayraktar” PUA-ların Ukraynaya verilməsi elə ən böyük dəstəkdir. Almaniya və Fransa Türkiyə qədər Ukraynaya hərbi yardım göstərməyib. Həmçinin, Türkiyə ”taxıl dəhlizinin” yaranması və fəaliyyətə başlaması üçün ciddi təşəbbüslər göstərib və Ukraynadan taxıl daşınmasına nail olub. O baxımdan heç bir dövlətin mənəvi və hüquqi haqqı çatmır ki, qardaş ölkəni ittiham etsin. Ən təəssüfedici hal odur ki, bəzən Kiyevin özündən də Türkiyəyə ittihamlar səslənir. Prezident Zelenskinin sözçüləri səviyyəsində Ankara hökuməti əsassız suçlanır. Rəsmi Kiyev ölkədəki erməni lobbisinin fitnə-fəsadına uymamalıdır. Ukrayna üçün anti-Türkiyə mövqeyindən vaz keçmək daha məqsədəuyğun və faydalıdır. Çünki Türkiyə Ukraynanın ərazi bütövlüyü və Krım məsələsində bəzi ölkələrdən fərqli olaraq səmimi və qətiyyətli mövqedədir”.



**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması**



# Şagirdlərlə bağlı problemlər valideynlərin iştirakı ilə həll ediləcək

## Məktəblərdə baş verən bütün hadisələr daim İctimai Şuranın nəzarətində olacaq

***Bütün bu faktlar fonunda qaragüruhun İntizam Şuraları şagirdlərin özünümüdafiə haqqını əlindən alacaq deyə hay-küy salması mənasızdır***

**Elm və Təhsil Nazirliyinin yeni qərarı ilə artıq məktəblərdə İntizam Şurası fəaliyyət göstərəcək. Eyni zamanda Nazirlik nizam-intizam qaydalarını pozan şagirdlərə qarşı tətbiq ediləcək inzibati tədbirlərini də müəyyənləşdirib.**

**Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdiri Elnur Əliyevin sözlərinə görə, inzibati tədbirlər şagirdlərin davranış səviyyələri nəzərə alınmaqla tətbiq ediləcək.** Bunun üçün məktəblərdə şagirdlərin davranış pozuntularının ağırlıq dərəcəsi təsnifatlara bölünüb. Həmin təsnifatlar davranış pozuntularının ağırlıq dərəcəsini təyin edəcək.

E.Əliyev bildirib ki, şagird davranış qaydaları ümumtəhsil məktəbləri üçün çərçivə xarakteri daşıyır: "Bu qaydalar əsasında məktəblər özləri də daxili qaydaları tərtib edə bilərlər. Nizamnamədə onlara bu səlahiyyət verilib. Məqsəd şagirdlərin bütün davranış qaydalarını nazirlikdən idarə etmək deyil".

E.Əliyev qeyd edib ki, məktəbdaxili nizam-intizam qaydalarına riayət edilməsinə və qaydaları pozanların inzibati cəzaya cəlb edilməsinə nəzarət məqsədilə məktəblərdə İntizam Şuraları yaradılacaq. Şuraların yaradılması və tərkibində valideynlərin iştirakı məcburi olacaq.

Məlum məsələdir ki, İntizam Şuraları, şagirdlərə cəza kəsilməsi məqsədilə qayda pozuntularının təsnifatlaşdırılması, sarı, narıncı, qırmızı "kartlar", filan, hamısı son zamanlar məktəblərdə baş verən və sosial şəbəkələrdə yayılan görüntülərlə bağlıdır. Bir şagird digərini döyür, şagirdlər sinif otağında qayğanaq bişirir, şagird müəllimi lağa qoyur... Görəsən, cəza tədbirləri ilə məktəblərdəki nizam-intizamsızlığı aradan qaldırmaq mümkün olacaqmı?

**Millət vəkili Ceyhun Məmmədovun sözlərinə görə, münasibətlərin tənzimlənməsi üçün müəyyən addımların atılmasına ehtiyac var.** Nizamnamələr, əsasnamələr olsa da, Elm və Təhsil Nazirliyinin yanaşması belədir ki, yeni qaydalara ehtiyac var ki, təşəbbüs kimi cəmiyyətə təqdim olunub: "Mən bunun lehinəyəm. Dəyişikliklərin nədən ibarət olacağını zaman göstərəcək. Düşünürəm ki, həm məktəblərdə, həm də ali təhsil müəssisələrində baxış və yanaşma dəyişməlidir. Cəza tədbirləri olmalıdır, lakin inzibati tədbirdən daha çox təbliğata, müzakirəyə üstünlük vermək lazımdır. Eyni zamanda məktəb rəhbərliyi ilə valideynlər arasında sıx təmas olmalıdır ki, müəyyən məsələlər ətrafında müzakirə aparılsın. Qayda pozuntusuna yol verən şagirdlər ciddi nəzarətdə saxlanmalıdır. Əgər ehtiyac olarsa, hüquq-mühafizə orqanlarına müraciət etmək olar".

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Günel Səfərova isə "Şərq"ə deyib ki, məktəblərdə nizam-intizam qaydalarını pozan şagirdlərə qarşı tətbiq ediləcək inzibati tədbirlərin hüquqa və beynəlxalq praktikaya zidd olduğunu iddia edən şəxslərin deyəsən dünyadan xəbəri yoxdur!? Hər halda hüquqşünas olmadıqları üçün qulaqdan eşitmə sözlərə görə bu cür qərəzli mövqe sərgiləyiblər: "İxtisasca hüquqşünas olduğum üçün əminliklə deyə bilərəm ki, bu qaydalar nə beynəlxalq Uşaq Hüquqları Konvensiyasına, nə də Azərbaycan Respublikasının "Uşaq Hüquqları haqqında" qanununa ziddir.

Hüquqi təfəkkürü olmayan insanlar "qanun"la "qayda"nın da fərqini bilmir. Qaydalar sadəcə tənzimləyici normalardır. Məktəblərdə nizam-intizam qaydalarını pozan şagirdlərə qarşı tətbiq ediləcək inzibati tədbirlər isə şagirdlərin nizam-intizama əməl etməsi ilə bağlı bir prosedur və çərçivə sənədidir. Çərçivə sənədi həm də o deməkdir ki, ayrı-ayrı məktəblər nəzərdə tutulan qaydaları istifadə edə bilər və müəyyən qaydaların tətbiqi ilə bağlı özləri də çalışa bilərlər. Bu sənəd bir qanun deyil. Bu, qaydalar sənədidir. Həm də ki, üzrsüz səbəbdən dərsə gecikmək, ev tapşırığını yerinə yetirməmək, böyüklərə qarşı nəzakətsiz davranmaq kimi davranış pozuntuları ilə bağlı tədbir görmək heç bir halda şəxsi hüquqların pozulması deyil".

Son illər, xüsusən də pandemiyadan sonra şagirdlərdə ciddi davranış pozuntularının müşahidə edildiyini vurğulayan G.Səfərovanın sözlərinə görə, problem təkcə Azərbaycanda yox, bütün dünyada yaşanır. Özünüz də şahidi olursunuz ki, son dövrlər şagirdlərin qaydaları pozması hadisələrinin sayı daha da çoxalıb: "Düzgün tərbiyə olunmamış, çətin islah olunan, xarakterində aqressivlik, qabalıq, kobudluq olan şagirdlər var.

Bu da anlaşılandır. Çünki uşaqlar uzun müddət qapalı şəraitdə qalıblar və sosiallaşma problemləri yaşayıblar.

İntizam Şurası da məhz bu cür yanlışlıqların aradan qaldırılmasına və məktəblərdə nizam-intizamın, təlim-tərbiyənin bərpasına çalışacaq.

Şuralar heç bir halda öz hüquqlarını müdafiə edən şagirdlərin cəzalandırılmasından getmir. Yəni "Haqsız yerə şagirdə qışqıran, uşağı vuran müəllimlərə qarşı şagirdin etirazı böyüyə qarşı nəzakətsiz davranış kimi götürülə bilər" kimi iddialar çox absurddur. Çünki İntizam Şurası sadəcə məktəbin idarə heyətindən ibarət deyil. Hər hansı şagirdlə bağlı yaranmış problem valideynin iştirakı ilə həll ediləcək. Eyni zamanda proseslər daim İctimai Şuranın nəzarətində olacaq. Yəni bu qədər həssas yanaşılan bir məsələdə İntizam Şurasının şagirdlərin haqsız yerə cəzalandırılmasına rəvac verməsi mümkün deyil. Məktəblərdə yaşanan son prosesləri gözdən keçirsəniz görərsiniz ki, uşaqların haqlı olduğu hadisələrdə müəllimlərin və direktorların işdən çıxarılması kimi qərarlar verildi. Hətta Lənkəranda baş verən məlum hadisə ilə bağlı yekun qərar İcra müavininin işdən çıxarılması oldu. Yəni əksər hadisələrdə uşaq rifahı əsas götürülüb. Bütün bu faktlar fonunda qaragüruhun İntizam Şuraları şagirdlərin özünümüdafiə haqqını əlindən alacaq deyə hay-küy salması mənasızdır. Bir çox ölkələrdə bu cür nizam-intizam qaydaları var. Hətta İntizam Şurasının yaradılmasına qarşı çıxan ekspertlərin tərif etdiyi Sinqapur, Yaponiya təhsil modellərində belə bu qaydalar mövcuddur.

Avropa, Amerika kimi ölkələrdə isə hər məktəb özünün daxili qaydaları ilə tənzimlənir, bəzilərində isə Təhsil Nazirliyi ilə. Mən düşünürəm ki, bu, uzunmüddətli bir proses olacaq. Bu qaydaların ənənəyə çevrilməsi müəyyən vaxt alacaq. Şagird bu sənədə bir qayda olduğuna görə yox, onları dərk etdiyinə görə əməl etməlidir. Əgər şagird üzrsüz səbəbdən periodik olaraq dərsə gecikirsə, qayda olduğuna görə gecikməməlidir və bunu ənənəyə çevirməlidir. Bu qaydalar mütləq lazımdır. Onların tətbiqində sui-istifadə hallarına yol vermək olmaz. Monitorinqi gücləndirmək lazımdır ki, İntizam Şurasının tərkibinin müəyyənləşməsinə, verilən qərarların ədalətliliyinə, qanuna uyğunluğuna riayət edilsin".

**Valideynlərlə məktəb arasında olan münasibətlərdəki gərginliyə toxunan G.Səfərova hesab edir ki, məktəblərdə yaşanan problemin bir çoxu da məhz valideyn məsuliyyətsizliyindən qaynaqlanır:** "Bir il ərzində araşdırdığım bütün hadisələrin kökündə ailədən qaynaqlanan problemlər dayanır. Məktəblərdə nizam-intizamı pozan uşaqlar ya yarımçıq ailələrdən gəlir, ya da evdə valideyn şiddəti görənlər. Uşaqların da gününün əksər saatı məktəbdə keçdiyi üçün bütün nöqsanlar orada aşkarlanır və nəticədə günahı da məktəblərin ayağına yazılır. Hər şeyi məktəbin, müəllimin üzərinə atmaq düzgün deyil. Uşağa tərbiyə vermək hər kəsdən daha çox valideynin borcudur. Amma bir çox ailələr bu yükü məktəbin üzərinə atır. Ailələr zəhmət çəkib uşaqlarını düzgün tərbiyə etsin, onlara məktəbdə dalaşmağın, müəllimə yalan danışmağın, sinif yoldaşlarına qarşı qeyri-etik davranıb, zorakılıq etməyin yanlış olduğunu izah etsin. Nəyə görə, 30 uşağın təhsil aldığı bir sinifdə düzgün ailə tərbiyəsi almayan 3 uşaq dərsin keçirilməsinə mane olmalıdır!? Burada məktəb, müəllim nəzarətindən öncə ailə tərbiyəsi xüsusi əhəmiyyət kəsb edir. Qanunvericilikdə valideyn məsuliyyətinin artırılması ilə bağlı məsələ Ombudsman Aparatının illərdir irəli sürdüyü təşəbbüslərdən biridir".

**İctimasi Şura sədrinin sözlərinə görə, İntizam Şurasının yaradılmasında məqsəd müəllimlərin, yaxud da şagirdlərin gözdən salınması, onların haqsız yerə cəzalandırılması deyil. Əksinə, bu, Şuranın qarşısında qoyduğu əsas məqsəd məktəbə və müəllimlərə olan inamın artırılması, onların zədələnən imicinin geri qaytarılmasıdır:** "Şuranın yaradılmasının müsbət tərəfi odur ki, nizamsızlıq problemi olan uşaqlar əvvəlcədən müəyyənləşdirilib onlarla müvafiq söhbətlər aparılacaq. Bu günə qədər hamı bizi tənqid edirdi ki, hadisə baş verdikdən sonra müdaxilə etməyin heç bir əhəmiyyəti yoxdur, risk qrupunda olan uşaqlar əvvəlcədən müəyyənləşdirilib onlarla iş aparmaq lazım idi. Yeni qaydalar da bizə imkan verəcək ki, biz məktəblərdə mütəmadi monitorinqlər keçirtməklə davranış pozuntusu olan uşaqları tapıb, psixoloqların iştirakı ilə onların təlim-tərbiyəsi nizam-intizam qaydalarına uyğunlaşdırılacaq. Uşaq rifahı ilə məşğul olan qurumların koordinasiyasının yaradılması ilə bağlı Bakı Şəhər Baş Təhsil İdarəsinin çox gözəl bir ideyası vardı. Neçə illərdir bu təklif aktual olsa da biz hələ bu gün bu koordinasiyanı kiçik formatlı da olsa formalaşdırdıq".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# "Qardaş ailə"si ağrılarımıza məlhəmdir

## Şəhid balaları iki dövlətin onlara arxa durduğunu əyani görürlər





***"Şəhid ailələrinin Türkiyənin müxtəlif şəhərləri ilə tanış olması, tarixi yerləri ziyarət etməsi onlara mənəvi güc, ruh yüksəkliyi verir"***

**Vətən müharibəsində şəhid olmuş mayor, hərbi pilot Qasımov Abbas Rza oğlunun ailəsi də "Qardaş ailə" layihəsi çərçivəsində Türkiyəyə yola salınıb. Trend-in məlumatına görə, layihə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu ilə Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyi (TÜİB) tərəfindən birgə icra olunur.**

Türkiyənin ölkəmizdəki səfirliyində ailənin yolasalma mərasimi olub. Tədbirdə Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı, Fondun sədr müavini Səfər Mehdiyev, TUİB-in İdarə Heyətinin sədri Hüseyin Büyükfırat, Azərbaycan və Türkiyədən olan millət vəkilləri iştirak ediblər. Qeyd olunub ki, layihə çərçivəsində şəhidin ailə üzvləri Türkiyənin Urfa şəhərində olacaq, Urfa və ətraf şəhərləri gəzib həmin bölgənin görməli yerləri, tarixi abidələri ilə tanış olacaqlar. Səfər çərçivəsində Türkiyədə Qasımovlar ailəsi ilə bir sıra görüşlərin keçirilməsi də nəzərdə tutulub.

Qeyd edək ki, bundan əvvəl layihə çərçivəsində Vətən müharibəsi şəhidi, mayor İlkin Əhədzadənin ailə üzvləri ötən ay Türkiyədə səfərdə olub, Türkiyənin Sivas Cümhuriyyət Universitetinin rektoru Alim Yıldızın dəvəti ilə baş tutan səfər çərçivəsində şəhidin ailə üzvləri 4 gün ərzində Sivas və ətraf şəhərlərin görməli yerləri, tarixi abidələri ilə tanış olmuşdular.

"Qardaş ailə" layihəsi ad baxımından "qardaşlaşmış şəhərlər"i xatırladır. Bakının belə qardaş şəhərləri çoxdur. O cümlədən Türkiyənin İstanbul, İzmir, Konya, Ordu şəhərləri də bu sıyahıya daxildir. "Qardaş ailə" isə daha çox mənəvi bağlar - ruhi bağlılıq yaradır.

**"Qardaş ailə" layihəsinin önəmindən danışan Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədri Azər Allahverənov qeyd etdi ki, "Qardaş ailə", əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan "bir millət iki dövlət" ideologiyasının daha da möhkəmlənməsinə xidmət edən layihədir:**

- Müxtəlif qurumlar tərəfindən həyata keçirilən hər layihənin bəlli hədəfləri olur. Layihədən layihəyə hədəflər dəyişir. Bir layihə çərçivəsində şəhid övladlarını, şəhidin ailə üzvlərini döyüş əməliyyatlarının aparıldığı, şəhid ata, şəhid oğul harada döyüşüb, harada şəhid olubsa həmin bölgəyə aparırlar. Bu, şəhid övladlarında torpağa, Vətənə sədaqət, dövlətə bağlılıq, milli-vətənpərvərlik hisslərinin möhkəmlənməsinə xidmət edir. Şəhid ailələrinin, şəhid övladlarının qardaş Türkiyənin müxtəlif şəhərlərinə səfərə aparılması, yerli bələdiyyələrin onlarla xüsusi ilgilənməsi, bölgənin, şəhərin tarixini yerlərini gəzmələri də dövlət ideologiyasının əsasını təşkil edir. Türkiyə bizə doğma, qardaş ölkədir, hər zaman, istənilən siyasi şəraitdə Azərbaycanın yanındadır. Və bu doğmalıq, qardaşlıq 44 günlük Vətən müharibəsinin gedişində necə özünü göstərdisə, müharibədən sonrakı dövrdə də eyniylə göstərdi və bu gün də qardaş ölkənin hər cür dəstəyini görürük. İstər qazilərimizin əməliyyat olunmalarında, istər müalicələrində, istərsə də şəhid və qazi ailələrinə dəstəkdə. "Qardaş ailə" layihəsi isə şəhid ailələrinə məhz mənəvi dəstəkdir. Bu, şəhid ailəsinə dövlətin hər zaman onların yanında olduğunun isbatıdır. Bu gün şəhid ailələrinə hər cür maddi dəstək verilir. Şəhid ailələri ölkə daxilində dövlət qayğısını hiss edir. Amma dövlət dəstəyi mütləq deyil ki, maddi formada olsun. Mənəvi dəstək də önəmlidir. Mənəvi dəstək maddidən də zəruridir. Və bu müqəddəs işdə qardaş Türkiyə yenə Azərbaycanın yanındadır. Xatırladım ki, qardaş Türkiyə 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın şəhid övladlarının Türkiyədə ödənişsiz təhsil alacağını elan etdi. Təsəvvür edin ki, bu qardaş dəstəyi şəhid ailələri üçün nə dərəcədə sevindiricidir və qardaş ölkənin Azərbaycana daha bir dəstəyinin göstəricisi idi.

**A.Allahverənov bildirdi ki, "Qardaş ailə" layihəsinin hədəflərindən biri də mədəniyyətlərarası əlaqələri inkişaf etdirməkdir:**

- Şəhid ailələrinin Türkiyənin müxtəlif şəhərləri ilə tanış olması, tarixi yerləri ziyarət etməsi, Türkiyədəki şəhid ailələri, qazi ailələri ilə, rəsmi şəxslərlə görüşmələri onlara mənəvi güc, ruh yüksəkliyi verir. Şəhid övladları səyahət etdikləri şəhərlərin tarixi ilə, qədim türk mədəniyyəti ilə tanış olurlar və böyük türk millətinin bir parçası olduqlarını hiss edirlər. Bu, şəhid balaları, onların ailələri üçün mənəvi qidadır. Bu cür layihələr eyni zamanda şəhid ailələrin psixoloji gərginlikdən çıxmasına da kömək edir. Şəhid ailələri 2 dövlətin onlara arxa durduğunu əyani görürlər. Bu, əlbəttə, şəhid ailələrinin toparlanmasına böyük dəstəkdir. Hesab edirəm ki, bu səpkili layihələr uzun müddətli olmalı, bəlli hədəflərə yönləndirilməlidir. Və "Bir millət iki dövlət" ideologiyasının gənclərimizin, ailələrimizin düşüncələrində daha möhkəm oturuşmasına xidmət etməlidir.

**Məlahət Rzayeva**

---

**"Kulis.az"ın baş redaktoru, yazıçı Ulucay Akif "Facebook" hesabında ölkəmizdə savadlı kadrların olmamasından şikayətlənib. Baş yazar məhz buna**



# Ölkədə savadlı kadrlar var

## Sadəcə olaraq onlar iş tapa bilmirlər

**görə də hamının işsizlikdən gileyləndiyini diqqətə çatdırıb:**

"Bəladı bu bəla, faciədir. Əksəriyyəti təhsilsiz, təhsili olan savadsız, savadı olan məsuliyyətsiz, məsuliyyəti olan isə qeyri-peşəkardır. Adicə müxbir vakansiyasına düz-əməlli işçi tapmaq olmur. Çox şey də gözləmirsən e, hərfləri tanısın, cümlə qura bilsin, bir az da təfəkkürü olsun, analiz edə bilsin. Yoxdu. Allah haqqı yoxdu, Quran haqqı yoxdu".

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu U.Akifin diqqət çəkdiyi problemlə bağlı "Şərq"ə danışarkən bildirib ki, ölkəmizdə kifayət qədər savadlı kadr var.** Sadəcə olaraq onlar iş tapa bilmirlər: "İndi sərbəstlikdir. Hər kəs istədiyi yerdə çalışa bilər. Bir çoxları yaxşı təhsil alsalar da, ölkədə özlərini görmək istədikləri yeri tapa bilmirlər. Buna görə də savadlı kadrların bir qismi ölkəni tərk edib gedirlər. Onları axtarıb tapan, üzə çıxaran yoxdur. Başlıca problem budur".

**Günəş Mərd**

---

# Paşinyan təhlükəli gedişlər edir

## Rusiya ilə ittifaqdan imtina onun özünə və Ermənistana baha başa gələcək



**"Qarabağ separatçılarının liderləri Araik Arutyunyana İrəvandakı görüşlərdə izah etdilər ki, Ermənistan gücsüzdür, Azərbaycanla şifahi razılaşmalar var, ona görə problemlərinizi özünüz həll edin". Bu barədə politoloq Elxan Şahinoğlu deyib.**

Ekspert bildirib ki, Araik Arutyunyan indi Moskvaya getməyə hazırlaşır ki, Rusiyadakı dairələrin mövqeyini öyrənsin: "Arutyunyan Moskvadan dəstək umarkən, İrəvan Qərblə yaxınlaşmağa çalışır. ABŞ Konqresi Nümayəndələr Palatasının sədri Nensi Pelosidən sonra Nümayəndələr Palatasının Demokratik Tərəfdaşlıq Komitəsinin sədri Deyvid Prays İrəvana gedib. Amerikalı konqresmenlər və diplomatlar Azərbaycanla qarşıdurmada Ermənistana bir şərtlə dəstək vədi verirlər ki, İrəvan Rusiyadan uzaqlaşsın. Məsələn, qatı ermənipərəst konqresmen Frenk Pallone son açıqlamasında bildirib ki, ABŞ Ermənistanın təhlükəsizliyinə, o cümlədən NATO ilə yaxınlaşmasına təminat verməyə hazırdır. Ancaq bunun üçün İrəvan Moskva ilə təhlükəsizlik anlaşmalarına yenidən baxmalı və Rusiyanın Gümrüdəki hərbi bazasından imtina etməlidir. Amerikalılar Nikol Paşinyanı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını da tərkə təşviq etməyə çalışırlar. Bu, Paşinyan üçün təhlükəli gedişatdır. Çünki baş nazir anlayır ki, Rusiya ilə ittifaqdan imtina onun özünə və Ermənistana baha başa gələcək. Rusiyanın yerinə ABŞ-ın Ermənistanın təhlükəsizliyinə təminat verəcəyinə əmin deyil".

**İsmayıl**

---

# Şagirdlərin məktəbdə telefondan istifadə qaydası müəyyənləşib

## Valideynlər bayram günləri və axşamlar müəllimə zəng edə bilməz



**Valideynlər və ya qanuni nümayəndələr tədris prosesi və məktəb fəaliyyətinə mane olan davranışlara yol verməməli, məktəb binasına və sinif otaqlarına yalnız məktəb rəhbərliyinin icazəsi ilə daxil olmalıdırlar.**

Bu, Elm və Təhsil Nazirliyi tərəfindən hazırlanan və ictimai müzakirələrə çıxarılan "Valideyn-məktəb münasibətlərinin tənzimlənməsi üzrə təlimat"da öz əksini tapıb.

Sözügedən layihədə qeyd olunur ki, məktəb heyətinin üzvləri ilə iş saatlarında və ya təyin olunmuş vaxtda əlaqə saxlamalı, axşam saatları, istirahət və bayram günlər məktəb heyətinin üzvlərini ciddi səbəb olmadan narahat etməkdən çəkinməlidirlər. Valideynlər "Şagirdlərin məktəbdaxili nizam-intizam qaydaları" ilə tanış olmalı və onu dəstəkləməlidirlər. Həmçinin öz övladının cəlb olunduğu situasiyalar da daxil olmaqla, nizam-intizam məsələlərinə dair məktəb heyətinin peşəkar mühakimə və qərarlarına hörmət etməlidirlər. Şagirdlər məktəbə ağıllı saat və telefonlar, həmçinin digər elektron cihazları məktəbə gətirməməli və dərs zamanı istifadə etməməlidirlər. Qeyd olunub ki, əgər müəllimlər şagirdlərin şəxsi elektron cihazlarından istifadə edəcəkləri dərs planlaşdırırsa, o zaman bunu ailələrə öncədən yazılı şəkildə bildirməli və cihazların təhlükəsiz şəraitdə saxlanmasını təşkil etməlidir. Əgər valideyn/qanuni nümayəndə övladına təhlükəsizlik məqsədilə (məktəbə gəlib gedərkən əlaqə saxlamaq üçün) elektron cihaz verərsə o zaman ümumi təhsil müəssisəsi dərs gününün sonuna qədər bu cihazların təhlükəsiz şəraitdə saxlanılmasını təmin etməlidir. Dərs müddətində elektron cihazlar şagirdlərə verilməməlidir.

# "Prezidentin Zəngilan, Cəbrayıl, Qubadlı səfəri böyük bir mesajdır"

## "Azərbaycan müharibəni öz hesabına qazandı və öz gücü ilə yenidənqurma işləri aparır"



**Azərbaycan Prezidenti İlham Əliyev və birinci vitse-prezident Mehriban Əliyeva oktyabrın 19-da Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarına səfər ediblər. Görülən işlərlə tanış olan prezident və birinci vitse-prezident 330/110 kilovoltluq "Cəbrayıl" Qovşaq Yarımstansiyasının təməlqoyma mərasimində iştirak edib. "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.**

Daha sonra İlham Əliyev və Mehriban Əliyeva Qubadlı şəhərinin Baş planı ilə tanış olublar. İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyublar. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev dövlətimizin başçısına və birinci vitse-prezidentə Qubadlı şəhərinin Baş planı barədə məlumat verib. Bundan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qubadlı rayonu ərazisində yaradılacaq "Zabuxçay" və "Bərgüşadçay" su anbarlarının layihələri ilə tanış olub. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin (ASC) sədri Zaur Mikayılov dövlətimizin başçısına layihələr barədə məlumat verib.

**Səfəri "Şərq"ə dəyərləndirən millət vəkili Cavid Osmanov bildirib ki, bu səfərlər ölkə başçısının işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasına nə qədər diqqət yetirdiyinin böyük sübutudur:** "Prezident İlham Əliyev Vətən müharibəsindən sonra dəfələrlə işğaldan azad edilmiş ərazilərə səfər edib. Bu səfərlərin əsas məqsədi böyük yenidənqurma və bərpa işləri ilə yerində tanış olmaq və yeni göstərişlər verməkdir. Səfərlər bir daha göstərir ki, ölkə başçısının rəhbərliyi ilə Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərin bərpasını sürətlə apararaq, vətəndaşlarımızın ata-baba yurdlarına böyük qayıdışını həyata keçirməyi planlaşdırır. Prezident Ağdamdakı Beynəlxalq Şəhərsalma Forumunda da xüsusən qeyd etdi ki, "Vətən müharibəsinədək xalqımızın milli ideyası işğal altındakı ərazilərimizi azad etmək idisə, əldə edilən qələbədən sonra milli ideyamız artıq işğaldan azad edilmiş ərazilərin bərpası və böyük qayıdışın təmin edilməsidir".

Dövlət rəhbəri və birinci vitse-prezidentin bu iki il ərzində azad edilən ərazilərə bir ayda 2 dəfə səfərinin şahidi olmuşuq. Səfərlər zamanı bu ərazilərin baş planları təsdiqlənib və orada görüləcək işlər mərhələli şəkildə planlaşdırılıb. Müstəqilliyimizin bərpası gününün sabahısı işğaldan azad edilmiş ərazilərə səfərin edilməsi isə özü-özlüyündə böyük bir mesajdır. Əlbəttə, bu gün görülən işlər, bizə deməyə imkan verir ki, Azərbaycan müharibəni öz hesabına qazandı və öz gücü ilə yenidənqurma işləri aparır".

**Nihat Müzəffər**



**"Hər kəs mütləq təhsilli olmalıdır"- deyə bir məcburiyyət yoxdur".**

Bu sözləri "Şərq"ə təhsil üzrə ekspert, fəlsəfə doktoru Rafiq İsmayılov deyib. Onun sözlərinə görə, orta ixtisas təhsilli gənclər özlərinə cəmiyyətdə daha yaxşı yer tapırlar: "Diplomu olmayan şəxs də ağıllı bir insandır. Nəyə görə özünü əmək bazarında doğrultmaq iqtidarında olmasın?! Bundan başqa, məktəblərdən hər il təxminən 120-130 min məzun olan şagirdin 60 mini ali təhsilini davam etdirir və diplom alırsa, bu hələ onların əmək bazarına hazır olduğunu demək anlamına gəlmir. Bəzən elə olur ki, orta təhsilli bir insan daha uğurlu mütəxəssis kimi yetişir.

# Diplomu olmayanlar da ağıllı insanlardır

## Orta ixtisas təhsilli gənclər özlərinə cəmiyyətdə daha yaxşı yer tapırlar

Özüm rəhbəri olduğum müəssisədə orta ixtisaslı əməkdaşlar var. Çox yaxşı işçidirlər, bir neçə il ərzində kifayət qədər təcrübə qazanıblar. Hazırda da işlərini davam etdirirlər. Müəssisə rəhbərinə də əməkdaşın ortaya qoyduğu nəticə maraqlıdır. Ona görə də məsələni faciə hesab etmirəm.

Qonşu ölkələrlə də sözügedən mövzunu müqayisə etdikdən sonra cəmiyyət üçün nə qədər ziyanlı olduğunu görmək mümkündür. Ali təhsil qazananların hamısının öz ixtisası üzrə fəaliyyət göstərdiyini güman etmirəm. Onların çoxu da işsiz qalır".

*Qeyd edək ki, ötən gün "Azərbaycanda uşaqların ailə-cəmiyyət münasibətlərində yeri və rolu" ictimai rəy sorğusunun nəticələrinə həsr edilən konfrans keçirilib. Tədbirdə çıxış edən Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc bildirib ki, orta məktəbi başa vuran məzunların 66 faizi hər hansı ali və peşə təhsili olmadan cəmiyyətə atılır.*

**Sücayət Mehti**

# Qızların, qadınların faciəsi illərdir davam edir

## "Günah özümüzdədir, biz özümüzdə yaşamaq istədiyimiz dəyərləri müdafiə etmək cəsarətini tapmırıq"

**Paytaxtın Nizami rayonunda 18 yaşlı qız intihara cəhd edib. 2004-cü il təvəllüdlü E.Q. binanın 6-cı mərtəbəsinin eyvanına çıxaraq özünü atmaq istəyib. Hadisə yerinə cəlb edilən hüquq-mühafizə orqanlarının əməkdaşlarının köməkliyi ilə intihar cəhdinin qarşısı alınıb və qız polis bölməsinə aparılıb. İ**

Ilkin araşdırmalar zamanı o, bildirib ki, 8 yaşından atası tərəfindən seksual xarakterli zorakılıq əməllərinə məruz qalıb. Bu səbəbdən həyatına son qoymaq istəyib. Ardınca Abşeron rayonunun Hökməli qəsəbəsində isə Murad Həsənov şəxsi münasibətlər zəminində 16 yaşlı nişanlısına bıçaqla xəsarət yetirərək onu öldürüb. Hər iki faktla bağlı hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən istintaq aparılır.



Sosial işçi Sənubər Heydərova ölkəmizdə artmaqda olan belə kriminal hallardan "Şərq"ə danışarkən bildirib ki, artıq cəmiyyətimizdə ailə sistemləri və şəxsi həyatla bağlı dəyərlər dəyişməkdədir: "Cəmiyyət isə dəyişən bəzi dəyərləri qəbul edə bilmir. Hətta qəbul edənlər belə ümumi danışanda bunu inkar edirlər. Bizim insanların yaşamaq istədiyi həyat ilə qorumaq istədiyi dəyərlər üst-üstə düşmür. Burda şəxslərin özləri müdafiə etdiyi dəyərlərə əməl etmirlər. Amma bunu digərlərindən gözləyirlər. Nəticədə də belə faciəvi hadisələr baş verir. Götürək elə nişanlısını qətlə yetirən bu oğlanı. O həm sevgilisinin onunla hər şey yaşamasını, həm də onun patriarxal düşüncəyə zidd addımlar atmamasını istəyib. Ziddiyyət burdadır. Amma belə şey olmur. Çünki artıq başqa dövrdür. Hisslər, istəklər, düşüncələr tamamilə dəyişib. Burda günahkar özümüzük. Biz özümüzdə yaşamaq istədiyimiz dəyərləri müdafiə etmək cəsarətini tapmırıq. Deyirlər ki, əvvəllər bizim cəmiyyətdə belə hadisələr olmayıb. Əslində isə bizdə həmişə belə hallar yaşanıb. Ən çox zorlanma hadisələri adətən patriarxal dövlətlərdə baş verib. Biz də əvvəldən patriarxal Şərq ölkəsiyik. Sadəcə olaraq əvvəl sosial şəbəkələr, sosial media o qədər də populyar olmadığından belə xəbərləri daha az eşidirdik. Bu məsələlər həmişə evdə ört-basdır edilməklə həll olunurdu. Hazırda isə bunu etmək mümkün deyil. İnformasiya çox sürətlə yayılır". Sosioloq diqqətə çatdırıb ki, Nizami rayonunda baş vermiş hadisədə zorlanmaya məruz qalan qız reabilitasiyaya göndərilməlidir. Ata isə qanun qarşısında cavab verməlidir: "Amma gəlin görək ölkəmizdə bu cür insanların reabilitasiyasını təşkil edən hansısa bir təşkilat tapa bilərikmi?! Hansısa bir neçə özəl sığınacaq var ki, onlar da ailə tərəfindən dəstəklənməyən qadınları, uşaqları götürürlər. Orda psixoloqlar bu şəxslərlə bir neçə günlük iş görür. Sonra isə onları həmin ailələrə geri qaytarırlar. Bu, reabilitasiya sayılmır. Prosesə bundan sonra nəzarət etmək lazımdır ki, həmin qız məhkəmə prosesində ata ilə üz-üzə gəlməsin. Amma biz zorlanma faktları ilə işləyəndə zorlanmaya məruz qalan şəxsin həm istintaq, həm də məhkəmə dövründə bir neçə dəfə zorakı şəxslə üzləşdirdiyini görürük. Çünki bizim məhkəmə orqanları hələ də dünya standartlarına cavab vermir".

**S.Heydərovanın sözlərinə görə, belə hadisələrdə cəmiyyət olaraq biz də günahkarıq:** "Özümüzü elə aparırıq ki, sanki belə şeylər danışılmamalıdır. Utanırıq, öz hüquqlarımızı tələb etmirik. Bu cür olmağa davam etsək, daha sonralar belə faciələrə şahidlik edəcəyik. Biz bir sıra ölkələr kimi vəhşi patriarxalizmin qurbanı olduğumuzu qəbul etməli və buna qarşı mübarizə aparmalıyıq".

**Günəş Mərd**



# Qısa ətək, saç rəngləmək, saqqal saxlamaq şagirdlərə qadağan edilir

**Məlum olduğu kimi, bir neçə gündür Elm və Təhsil Nazirliyi tərəfindən "Ümumi təhsil müəssisələrində şagird davranış qaydaları" hazırlanıb.**

Dünən sözügedən layihə artıq nazirliyin saytında yayımlanıb. Ümumi təhsil müəssisələrində şagird davranış qaydaları ilə bağlı çərçivəni müəyyən edəcək sənəddə müxtəlif məqamlar yer alsa da, daha çox maraq doğuran şagirdlərə geyim və xarici görünüşlə bağlı qoyulan qadağalardır.

Qaydalarda qeyd olunur ki, şagirdlər şəxsi gigiyena qaydalarına riayət etməli, dərs zəngindən əvvəl üst geyimi (palto, papaq, kapüşonlu jaket və s.) çıxarmalı, ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarına aid qaydalara riayət etməli (məktəbli forması, ayaqqabı və s.), geyim səliqəli və təmiz olmalı uzunluğu çiyindən aşağı olan saçları səliqəli şəkildə arxadan toplamalı, fiziki tərbiyə dərsləri üçün məktəbin geyim qaydalarına riayət etməlidirlər. Şagirdlərə tətbiq olunan qadağalar bunlardır: çox dar geyim, hündürdaban ayaqqabı, dizdən yuxarı olan ətək, zinət əşyası və bahalı saat kimi aksesuarlar, qeyri-adi saç düzümü və saç rəngi, uzun və rəngli dırnaqlar, makiyaj, saqqal.

*Həmçinin ümumi təhsil müəssisələrin yuxarıda qeyd olunanlarla bağlı daxili qaydalar tərtib etmələri tələb olunur.*

# Sosial şəbəkələrə inam azalır

## Çünki istifadəçilərin az qala 25-30 faizi saxta profillərdir






**”Dostlar, paylaşıma nöqtə, vergül yazın. Mark Zukerberq (red. amerikalı sahibkar, feysbukun qurucusu) yenə məni bloka atıb”. Bu cümlə yəqin ki, çoxlarına tanışdır.**

Feysbuk istifadəçiləri məhdudiyyətlə qarşılaşanda ”nöqtə-vergül” kampaniyası başladırlar. Hər hansı bir səbəbdən məhdudiyyət qoyulmuş hesablarına sadəcə rəy yazdıraraq bloku ləğv edə biləcəklərini düşünürlər.

Bəs, ”nöqtə-vergül” həqiqətən istifadəçilərin blokdan çıxmasına imkan yaradırmı?

**”Şərq”in sualını cavablandıran internet-media eksperti Səbuhi Abbasov deyib ki, sosial şəbəkələrdə bəzilərinin başa düşmədiyi məqamlarla rastlaşması ”Meta” şirkəti rəhbəri M.Zukerberqin həm ABŞ, həm də Avropa Parlamentinə verdiyi hesabatdan sonra üzə çıxmağa başladı:** ”Sosial şəbəkə istifadəçilərinin az qala 25-30 faizi saxta profillərdir. Nəticədə, sosial şəbəkələrə inam azalır. Şirkətin komandası müxtəlif qabaqlayıcı addımlar atmağa başladı. Əvvəlcə saxta profilləri sildi. Gerçək hesablarda kimliyin təsdiqlənməsi prosesini reallaşdırdı. Təkcə saxta deyil, passiv profillər də alqoritmə yerləşdirildi.

Şirkətdə konkret bir şəxs müəyyən profilin fəaliyyətini məhdudlaşdırmır. Sadəcə, sistem alqoritm üzərində qurulub. Tutalım, kimsə ay ərzində heç kimə reaksiya bildirmirsə, avtomatik olaraq paylaşımları görünmür. Sistem özü profilə qarşı adekvat münasibət yaradır”.

*Ekspertin sözlərinə görə, feysbuk əvvəllər zorakılıq, işgəncə, vəhşi cinayətləri yansıdan paylaşım ediləndə xəbərdarlıq edirdi. İndi isə elementar şəkilləri paylaşanda da profil bir müddətlik bağlanır:* ”Şirkət həssaslığı artırıb. Terror, zorakılıqla bağlı ifadələrlə paylaşım edənlər də bloka düşürlər. Hətta tanınan sosial şəbəkə səhifələri uzunmüddətli məhdudiyyətin qurbanı oldular.

Sosial şəbəkə istidafəçisi bloka düşəndə dostlarına ”nöqtə-vergül yazın” deməklə problem aradan qalxmır. Əvəzinə şərh yazmaqlarını istəsinlər. Bir sözdən ibarət şərh yazsalar, alqoritm onu daha aktiv profil hesab edərək, blokdan çıxarar”.

**Aygün Tahir**

# Şəhər sakinlərinə ətraflı məlumat verilib

## BMT nümayəndəliyi önündə Ermənistanın müharibə cinayətlərini əks etdirən sərgi-aksiya keçirilib



**BMT-nin Vyanadakı nümayəndəliyi önündə Ermənistan silahlı qüvvələrinin 30 illik işğal və II Qarabağ müharibəsi dövründə törətdiyi müharibə cinayətlərinə həsr olunmuş sərgi-aksiya keçirilib.**

Diasporla İş üzrə Dövlət Komitəsindən ”Şərq”ə verilən məlumata görə, Birləşmiş Millətlər meydanında təşkil olunmuş aksiya Avstriyadakı Azərbaycan icmasının təşkilatçılığı ilə gerçəkləşdirilib.

Sərgi-aksiyada Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Gəncə, Naftalan, Bərdə, Tərtər, Mingəçevir və digər şəhərlərinə raket hücumları nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla 93 mülki şəxsin həlak olmasını, 454 nəfərin müxtəlif dərəcəli bədən xəsarətləri almasını, Xocavənd rayonunun Edilli kəndində aşkar olunan kütləvi məzarlığı və Azərbaycan torpaqlarında basdırdığı minaları əks etdirən fotomateriallar nümayiş etdirilib.

Fotomateriallar ”Ermənistan silahlı qüvvələri təkcə Azərbaycan hərbi qulluqçularına qarşı deyil, həm də mülki vətəndaşlarımıza qarşı misli görünməmiş qırğınlar törədib”, ”Çoxsaylı müharibə cinayətlərinə görə məsuliyyət daşıyan erməni silahlı qüvvələrinin qanun qarşısında cavab verməsini tələb edirik!”, ”Beynəlxalq təşkilatları müharibə cinayətləri törədən erməniləri qınamağa çağırırıq!”, ”Ermənistanın təcavüzünü dayandırın!” kimi şüarlar və çağırışlarla müşayiət olunub.

Avstriyada yaşayan azərbaycanlı musiqiçi Ruhulla Əzizin kamançada ifa etdiyi həzin musiqi ilə Ermənistanın Azərbaycana qarşı törətdiyi müharibə cinayətlərinin bütün qurbanları yad edilib.

Aksiya ilə maraqlanan şəhər sakinlərinə Ermənistanın müharibə cinayətləri barədə ətraflı məlumat verilib.

**Sücayət**



# Bakı metrosuna daha 10 yeni vaqon gətirilib

## Yeni vaqonların tutumu əvvəlki nəsil analoqları ilə müqayisədə, 15 faiz çoxdur

**Rusiyanın ”Transmaşholdinq” Səhmdar Cəmiyyətinin ”Metrovaqonmaş” müəssisəsinin istehsalı olan 10 vaqondan ibarət hərəkət tərkibi Bakı metropoliteninin ”Nərimanov” elektrik deposuna gətirilib.**

Bu barədə “Şərq”-ə ”Bakı Metropoliteni” QSC-nin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov məlumat verib. O bildirib ki, qurum nümayəndələrinin Rusiyaya səfəri zamanı texniki təftiş, ilkin sınaq və qəbulu üzrə sənədləşmələrdən sonra qatarlar Bakıya sentyabr ayının sonlarında yola salınmışdı.

Hər biri innovasiyalar baxımından 4-cü nəslə mənsub 81-765 B./81-766 B. modelli 5 vaqondan ibarət 4 qatar 2019-cu ilin oktyabrında bağlanmış üçillik müqaviləyə əsasən, ”Bakı Metropoliteni” QSC-nin texniki şərtlərinə uyğun istehsal olunub. Texniki tapşırıqda Azərbaycan paytaxtının mikroiqlim və coğrafi şəraiti, Bakı metropoliteninin xüsusiyyətləri və mürəkkəb infrastrukturu nəzərə alınıb.

Gətirilmiş vaqonların sərnişinə xidmət baxımından üstünlüklərindən kondisioner sisteminin Bakının isti iqlim şəraitinə uyğunlaşdırılması xüsusi qeyd olunmalıdır. Bununla yanaşı, avtomatik tənzimlənən mikroiqlim nəzarəti sisteminə havanın bakteriyalardan təmizləmə funksiyası da daxildir. Əlavə olaraq, vaqonlarda ultrabənövşəyi lampalar məhz bu funksionallığa malikdir. Vaqondan-vaqona birbaşa keçidlər sərnişinlərin qatar boyu hərəkət rahatlığını, onların bərabər paylanmasını təmin edir. Yeni vaqonların tutumu əvvəlki nəsil analoqları ilə müqayisədə, 15 faiz çoxdur. 38 oturacağı olan baş vaqonun sərnişin tutumu 315, 44 oturacaqlı orta vaqonun isə 329 nəfərdir. Həmçinin qapıların daha enli olması sərnişinlərin minib-düşmə rahatlığını, intensivliyini artırır və bu, qatarların hərəkət qrafikinin pozulmasının aradan qaldırılmasında müəyyən rol oynayır. Qapıların rəvan açılıb-bağlanan sistemi həm də fiziki təzyiqlərə davamlıdır.

Sərnişinə xidmət mədəniyyətinin yüksəldilməsi baxımından yeni qatarlar əlil və uşaq arabaları, iri yüklər üçün zonalara malikdir. Ayaq üstə dayanan sərnişinlər üçün çoxfunksiyalı zonalar da vaqonların daşıma qabiliyyətini artırır. Vaqonların konstruksiyası səs-küy və istilik izolyasiyası, elektrik enerjisinə qənaət edən müasir işıqlanma və orijinal qrafikalı informasiya sistemlərindən ibarətdir. Bütün vaqonlarda mobil cihazların yüklənmə portları var. Sərnişinlər üçün ilk nəzərəçarpacaq fərq məhz baş vaqonların ön işıqlanma sisteminin fərqli dizaynda olmasıdır. Maşinist kabinasının genişliyi daha rahat idarəetməyə şərait yaradır. Avtomatlaşdırılmış idarəetmə, daxili və xarici videomüşahidə sistemləri maşinistin nəzarət imkanlarını optimallaşdırır.

Sazlama və tənzimləmə, xətlərdə normativlərə uyğun son sınaq yürüşlərindən sonra qatarlar xəttə veriləcək.

”Bakı Metropoliteni” QSC-nin növbəti texniki heyəti istehsal prosesi tamamlanaraq ilkin sınaqlara cəlb edilmiş daha 10 yeni nəsil qatarın qəbulu üçün Rusiya Federasiyasına yollanıb. Qəbul prosedurları uğurla tamamlanarsa, 10 vaqondan ibarət qatar karvanının oktyabr ayının sonlarında Bakıya yola salınması gözlənilir.

# Ekspert BNA rəsmisinin çağırışını gülünc adlandırdı

## “Necə yeni avtomobildən istifadə etməyin? At minsinlər?”



**Bakı Nəqliyyat Agentliyinin Mətbuat katibi Mais Ağayev tıxacsız Bakı üçün insanları şəxsi avtomobillərdən imtina etməyə çağırıb. O qeyd edib ki, ictimai nəqliyyatın hərəkət etdiyi şəhər tıxacsız olur:**

”Bu cür olmasını istəyirsinizsə, şəxsi avtomobillərdən istifadədən imtina edib ictimai nəqliyyatın xidmətindən yararlanın. Daha rahat və tez mənzil başına çatmağın başqa alternativi yoxdur!”.

**Sağlam Cəmiyyət Hərəkatının rəhbəri, sosioloq-jurnalist Elçin Bayramlı BNA rəsmisinin çağırışını ”Şərq”ə dəyərləndirərkən bildirib ki, bu çox gülüncdür:** ”Necə yeni avtomobildən istifadə etməyin? At minsinlər? Bəlkə, on kilometrlərlə yolu piyada gedib-gələk? Paytaxtda sərnişindaşıma sistemi bərbad haldadır. Şəxsi maşından imtina ediləcək şəhərdə gərək çoxsaylı nəqliyyat sistemləri olsun. Bakıda tramvay və trolleybus, həmçinin, elektriçkalar müvəffəqiyyətlə məhv edilib. Yerüstü sərnişindaşımanın son nümayəndəsi olan avtobuslar isə yox kimi şeydir. BNA sanki qəsdən bu sahəni daha da bərbad hala saldı. Belə şəhərdə hər kəs özünə maşın almağa məcburdur. Ona görə də mən hələ uzun illər öncə ”Hərəyə 1 maşın alaq, əziyyətdən qurtulaq” kampaniyası elan etmişəm. Son aylarda isə Bakının sərnişindaşıma sistemində problemlər daha da artıb, tıxaclar çoxalıb. Avtobusların sayı azalıb, marşrutların intervalı çoxalıb. Metroda artıq acınacaqlı vəziyyət yaranır. İnsanlar saatlarla küçələrdə qalır. Həddən artıq sıx şəkildə vaqonlarda, avtobuslarda əziyyətlə gedirlər”.

*E.Bayramlının sözlərinə görə, artıq şəhərkənarı ərazilərdə də tıxaclar yaranır:* ”Özü də təkcə işə gedib-gəlmək saatlarında deyil, adi vaxtlarda da. Müvəqqəti tədbirlər problemi aradan qaldırmır. Problemin həllinə fundamental yanaşılmalı, kompleks şəkildə həll edilməlidir. Əhalinin Bakıya cəmləşməməsi, əksinə, paytaxta toplaşmış region əhalinin bölgələrə qayıtması üçün sosial-iqtisadi tədbirlər görülməlidir. Digər şəhərlərdə fabrik və zavodlar tikilməli, bəzi ali məktəblər başqa şəhərlərə köçürülməlidir.

Bakı dünyada yerüstü sərnişindaşımada yalnız avtobusların qaldığı yeganə paytaxt şəhəridir. Vaxtilə qəsdən məhv edilmiş nəqliyyat sistemləri - tramvay, trolleybus və elektrik qatarları bərpa edilməlidir. Dənizdə kater taksilərin hərəkəti təşkil olunmalıdır. Metro stansiyalarının sayı sürətlə artırılmalıdır. Ən əsası Bakıda xaotik şəkildə sıx-sıx bina tikintisinə son qoyulmalıdır. Mərkəzi hissələrdə tikinti tam dayandırılmalıdır, hətta bəzi yeni hündürmərtəbəli binalar sökülməlidir”. Sosioloq son olaraq qeyd edib ki, hazırda Bakı kollaps vəziyyətindədir: ”Bu məsələnin Milli Məclisdə geniş müzakirəsinə və müvafiq qərarların qəbuluna böyük ehtiyac var. Bu biabırçılığa son qoyulmalıdır”.

**Günəş Mərd**

# Qanunlar da dəyişir, onlar da...

## Bəzi məhkumlara övladının toyunda iştirak etməyə icazə verilir



**Bu ilin 9 ayı ərzində Ədliyyə Nazirliyi yanında İctimai Şuranın üzvləri penitensiar müəssisələrə başçəkmələr edərək 1300-dək məhkuma müxtəlif istiqamətlər üzrə hüquqi yardım göstəriblər.**

Ədliyyə Nazirliyi İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova "Dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması və korrupsiya risklərinin aradan qaldırılmasına dəstək" layihəsi çərçivəsində Ədliyyə Nazirliyinin vətəndaşlara, biznes qurumlarına xidmətlərin təqdim edilməsi səviyyəsinin müəyyənləşdirilməsi üzrə monitorinq hesabatı ilə bağlı keçirilən tədbirdə deyib.

**Ədliyyə Nazirliyi yanında İctimai Komitənin koordinatoru Əliməmməd Nuriyev cəzaçəkmə müəssisələrində məhkumların saxlanma şəraiti, onların hüquqlarının qorunması və digər problemlərin həlli diqqət mərkəzində olduğunu deyib:** "Hər şeydən əvvəl bu məsələ ilə bağlı qanunvericilikdə əhəmiyyətli dəyişikliklər baş verməlidir. Penitensiar müəssisələrin rəhbərliyinin fikirlərinə önəm verilməlidir.

### "Bütün bunlar məhbusların islahına da müsbət təsir göstərir"

Məhkumlara hüquqi yardım göstərilməsinə xüsusi diqqət yetiririk. Məhkumlara hüquqi yardım İctimai Komitənin hüquqşünas üzvləri tərəfindən göstərilir. Cəzaçəkmə müəssisəsinə başçəkmə prosesinin gedişində məhkumlara hüquqi yardım göstərilir. Məhkumların müraciəti əsasında onların ailə üzvlərinə də hüquqi yardım göstərilir. Məhkumların ailələrinin ilk növbədə ünvanlı sosial yardım alması ilə bağlı problemlər var. Hüquqi yardımlar sahəsində bu istiqamətdə müəyyən irəliləyişlərə nail olunub. Kassasiya, apelyasiya şikayəti, əfv və bağışlama ilə əlaqədar da məhkumlara geniş izahatlar veririk".

*Ə.Nuriyevin fikrincə, məhkumlar nümunəvi davranış nümayiş etdirirlərsə, onlara verilən görüşlərin sayı artırılır, telefonla zəng etməyə imkan yaradılır. Bəzi məhkumlara məzuniyyət tətbiq edilməsi prosesi də həyata keçirilir:* "Ailələrində bədbəxt hadisə baş verirsə, qısa müddətdə onların evə buraxılması halları da baş verir. Hətta bəzi məhkumların övladlarının toyunda, xeyir işində iştirakına da icazə verilir. Bütün bunlar məhbusların islahına da müsbət təsir göstərir. Bu da məhkumlarda əlavə stimul yaradır. Mühüm problemlərdən biri də ondan ibarətdir ki, hələ məhkumların vaxtından əvvəl şərti olaraq azadedilmə institutunu tam surətdə reallaşdırmaqla bağlı müəyyən problemlər qalmaqdadır".

**Şəymən**

**"Şəki-Bazar"ASC səhmdarlarının nəzərinə!**

06 dekabr 2022-ci il saat 12:00-da Şəki şəhəri S.Rəhman küçəsi 1, "Şəki-Bazar"ASC-nin binasında "Şəki-Bazar" ASC-nin Səhmdarlarının növbəti illik Ümumi Yığıncağı keçiriləcəkdir.

Səhmdarların yığıncaqda iştirak etmələri xahiş olunur.

Səhmdarların nəzərinə çatdırılır ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-ci maddəsinin 3.1-ci bəndinə əsasən səhmdarlar yığıncaqda iştirak hüququnu bilavasitə özləri və ya nümayəndəsi vasitəsi ilə həyata kecirə bilərlər.

Yığıncağın gündəliyində olan məsələlər:

1. "Şəki-Bazar"ASC-nin 2021-ci il maliyyə təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi.
2. 2021-ci ilin maliyyə nəticələrinə görə maliyyə-təftiş komissiyasının hesabatı və mühasibat balansının təsdiq edilməsi.
3. 2021-ci ilin yekunlarına görə mənfəətdən səhmdarlara ayrılmış dividentin təsdiqlənməsi.
4. Digər məsələlər.

Səhmdarlar Ümumi yığıncağının gündəliyi üzrə materiallarla tanış olmaq üçün "Şəki-Bazar"ASC-nin İdarə Heyətinə müraciət edə bilərlər. Əlaqə telefonu: (024)244-3599.

**Şəki-Bazar"ASC-nin İdarə Heyəti**

"Təhqiqat" qəzetinin baş redaktoru Yaqub Məğrur, şöbə müdirləri Hacı Habil Məmmədov, Vidadi Turablı, Qəribxan Dağlaroğlu və redaksiya heyəti, qəzetin əməkdaşı Mətləb Əliyevə, atası

**Mütəllim Əliş oğlunun**

qəfil vəfatından kədərləndiklərini bildirir, ona və mərhumun bütün yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət etsin!**

# " Reklamlardan qazanıram"

## Bəhram Bağırzadə: "Yeni filmlərə çəkilirəm ki, ailəmi dolandırım"



**"Bir dəfə yas məclisində idim. Molla xanım mikrofonu götürdü ki, bugünki yasın, mərhuma xanımın məclisinin sponsoru filankəs hacıdır.**

Elə çıxdı ki, filan hacı oturub başda, məclisin tədarükünü görüb. Atam ağlıma gəldi, hönkür-hönkür ağladım. O vaxt Bakıda mağar qurulmasına icazə verilmirdi. Cümə axşamları olanda atam gedirdi, nəyə gücü çatır yasda süfrənin altına qoyurdu gəlirdi. Heç kim bilmirdi: nə xanımı, nə uşağı utanırdı. İndi restoranda oturanda biri kənardan qışqırır: Bəhram müəllim, durarsınız, qonağımsan. Bütün hamı bilir ki, hesabı ödəyib. Mədəni insan susmalıdır, yola verməlisən". Bu sözləri Əməkdar artist Bəhram Bağırzadə "Astar" yutub layihəsində deyib. Aktyor bildirib ki, yas məclisinə də sponsorluq edirlər.

Bağırzadə qazanc yerini açıqlayıb. O, restoranı olması haqda suala belə cavab verib:

"Yeni filmlərə çəkilirəm ki, ailəmi dolandırım. Pul üçün yola verirəm. Reklamlardan qazanıram. Bir də ağlım var. Şirkətlər dəvət edir, onlar üçün layihə yazıram. Restoranım yoxdur, sinif yoldaşımın məkanıdır. reklam edir, pul qazanıram.

# Nazilə efirdə 8 yaşlı uşağa 'lay-lay"dedi

**Şairə Nazilə Səfərli canlı efirdə gözlənilməz addım atıb.**



Şairə qonaq olduğu "Həmin Zaur" axşam şousunda studiyanın səhnəsində yerə əyləşərək verilişə qonaq gələn 8 yaşlı Oqtay adlı oğlana "lay-lay"deyib.

Lakin uşaq "Mənim "lay-lay" vaxtım deyil. Yuxum gəlmədi" deyərək, studiyada əyləşən digər sənətçilərin üzünü güldürüb.

# Şəbnəm Tovuzlunun qızı ailə qurur



**"İllərdir bir-birini sevirlər. Yaxın günlərdə elçilik, nişan və toy olacaq. Günelin ad günündə oğlan təsadüfən evlilik təklifi etdi".**

Bu sözləri müğənni Şəbnəm Tovuzlu "Səhər mərkəzi" proqramında deyib. O bildirib ki, qızı yaxın günlərdə ailə quracaq: "Günel elə bir qızdır ki, deyir, istəməzdim yayılsın. Deyirəm, tanınmış adamın qızısan, burada pis heç nə yoxdur. Qızım ailə qurandan sonra Amerikaya köçəcək".

(Əvvəli səh: 16-da)




# Dünya onu şəfa bilirdi

## Dərman elə vəziyyətə saldı ki, orqanları sıradan çıxdı, çənəsi əridi

**Eben Byers müvəffəqiyyətli bir həvəskar qolfçu idi, baxmayaraq ki, onun əsas məşğuliyyəti sənayeçilik idi. İdmançı olduğu üçün adi həyat sürənlərdən daha çox bədənini gücləndirmək, formada olmaq kimi problemləri yaşayırdı.**

Ancaq faydalı və möcüzəvi olduğuna inanılan "Radium" onun ölümü olacaqdı. Əslində, Byersin ölümü ilə bir pərdə bağlanacaq və dünya onun "dərman" deyil, "zəhər" istifadə etdiyini görəcəkdi. Bəs Byers nə yaşadı?

1927-ci ildə idman yarışında yaralanan 47 yaşlı Byers hadisədən sonra ağrılarını dindirmək üçün həkimə müraciət edib. Qarşısındakı həkim ona tez sağalmaq və ağrıları effektiv şəkildə aradan qaldırmaq üçün "Raditor"dan istifadə etməyi məsləhət gördü. İlk istifadə etdiyi andan özünü çox yaxşı hiss edən Byers, dərmanı uzun illər istifadə etməyə davam etdi. Əvvəlcə gündə bir dərman istifadə etdi, sonra bu doza gündə 3 dəfəyə qədər artdı. Narkotikdən asılı olan Byers 1931-ci ilə qədər bu dərmanı 4 il istifadə edib. Ümumilikdə o, 1400-dən çox "Raditor" istifadə etmişdir. Nəhayət, daxili orqanları parçalanan, bədənindəki bütün əsəblər əriyən, hətta sümükləri qırılan Bayersin xilası üçün həkimlər səfərbər olub.

Bir ilə yaxın intensiv müalicə alan bədbəxt adama radiumdan ərimiş öz çənəsi əvəzinə protez çənə taxılıb. Daxili orqanları ciddi zədələnib. Hətta bədənində dəliklər olan Byers bütün cəhdlərə baxmayaraq, 31 mart 1932-ci ildə çoxsaylı orqan çatışmazlığından vəfat etdi. Bu hadisədən sonra şirkət bağlandı, lakin dərman dünyada zərərli sayılsa da, müxtəlif adlar altında satılmağa davam etdi. Byersin cəsədi də karantin zonasında qurğuşun tabutunda basdırılıb.

ABŞ-ın Boston şəhərindəki Massaçusets Texnologiya İnstitutunun (MIT) nüvə fizikası professoru Robley D. Evans, 33 il sonra cəsədini eksqumasiya edərkən, Byersin bədənindəki ümumi radium səviyyəsinin təxminən 1000 Ci (37 MBq) olduğunu hesablayıb. Bu, bir insanın dözə biləcəyindən artıq idi.

Ölümün səbəbi o dövrün terminologiyası ilə "radiasiya zəhərlənməsi" adlandırıldı, lakin bu, kəskin radiasiya sindromu deyil, xərçəng idi. "Raditor" bu ağrılı ölümə görə məsuliyyət daşıyırdı. Byersdən sonra radium üzərində araşdırmalar artdı və nəticədə '88' elementinin əsl siması üzə çıxdı. "Raditor" da tarixin tozlu səhifələrində basdırıldı, bir daha istifadə olunmayacaqdı. İndi bütün dünya bir nəslin serial qatilini tanıyır.

**Turan**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olu-

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 3006

## Hindistanlı milyarder Dubayın ən bahalı villasını aldı



**Hindistanın ən varlı adamı hesab edilən milyarder Mukeş Ambani Dubaydakı ən bahalı villanı 163 milyon dollara alıb.**

Oxu.az xəbər verir ki, sahibkar "Palm Jumeirah" bölgəsində Küveyt maqnatı Məhəmməd Alşayın ailəsinə məxsus malikanəni əldə edib.

Bundan əvvəl də Ambani Birləşmiş Ərəb Əmirliklərinin məşhur kurort şəhərində daşınmaz əmlak alıb. 2022-ci ilin əvvəlində o, 80 milyon dollarlıq evə sahibi olub.

*Qeyd edək ki, varlı əcnəbilər Dubayda daşınmaz əmlak almaqda maraqlıdırlar. Belə ki, bu halda onlara 10 il müddətinə viza açılır.*

# Dünya onu şəfa bilirdi

## Dərman elə vəziyyətə saldı ki, orqanları sıradan çıxdı, çənəsi əridi












**Ağrısını dindirmək üçün həkim məsləhəti ilə içdiyi "dərman" bədbəxt adamın sonunu gətirdi! Bütün dünyanın faydalı hesab etdiyi şey onunla bərabər çoxlarının ölümünə səbəb olub. Acı həqiqət düz 33 ildən sonra üzə çıxıb.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, 1918-1928-ci illər arasında enerji verən və cavanlaşdıran dərmanlar dünyada çox məşhur idi. "Raditor" o dövrdə ən çox istifadə edilən dərmanlardan biri idi. ABŞ-ın Nyu-Cersi ştatındakı "Bailey's Radium Laboratories" şirkəti "Raditor"u bazara çıxararkən enerji içkisi kimi təqdim edib. 20-ci əsrin əvvəllərində radiumun gücü yeni kəşf edildi. Bu maddənin parıltı yaydığı müəyyən edildikdən sonra onun gücü bir çox sahədə tətbiq edilib. Heç kim onun zərərlərindən danışmırdı, yalnız onun yaydığı işığa diqqət yetirirdi. Marie Curie tərəfindən tapılan maddə qısa müddətdə ABŞ-da hər sahədə istifadə olunmağa başladı. Xüsusilə, rəngli hərflərlə yazılmış və gecələr görünən qol saatlarının satışı rekordlar qırıb.

İş o yerə çatdı ki, 1911-ci ildə İngiltərənin paytaxtı Londonda "Carradium Hair Restorer" adlı məhsul satışa çıxarıldı. Saçları düzəldən, parlaqlaşdıran, gücləndirən məhsul olduğuna dair reklamlar verilirdi və məhsul getdikcə populyarlaşdı. "Cavendish Radium" brendi təkcə saça qulluq məhsulları istehsal etməyib. Geniş çeşiddə məhsullara sahib olan şirkət, həmçinin diş pastaları, dəriyə qulluq kremləri, ətirlər buraxıb. Lakin təmas və ya inhalyasiya yolu ilə böyük təsir göstərməsə də, zəhərin qəbulu və ya qan dövranına yeridilməsi qaçılmaz nəticələrə səbəb ola bilər. Əslində belə oldu.

*(Davamı səh: 15-də)*

**Turan**

## Sosial media fenomeninə çevrilib

### İtin instaqram hesabını 117 min adam izləyir




**Dünyanın müxtəlif yerlərindən insanlar və bəzən heyvanlar müxtəlif istedadları və diqqətəlayiq şəkilləri ilə sürətlə izləyicilər qazanırlar.**

**"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, 2019-cu ildə Braziliyanın Rio-de-Janeyro şəhərində polis idarəsi yaxınlığında məmur Kriştiano tərəfindən yaralı və ac vəziyyətdə tapılan it sosial media fenomeninə çevrilib.**

**Oliveyra adlı itin polis bölməsinin talismanı olduğu və polislə bərabər patrulluq etdiyi bildirilib.**

**Braziliyada sosial media fenomeninə çevrilən itin instaqram hesabını 117 min adam izləyir.**

**İtin çoxlu foto və videolarının paylaşıldığı sosial media hesabını idarə edən polis məmuru Kriştiano Oliveyra mətbuata verdiyi açıqlamada bildirib ki, tez-tez itin foto və videolarını paylaşır, olmayanda izləyicilər narahat olur.**

**Turan**

## İkardini otelə buraxmadılar

### Nara ilə görüşmək istəyən ulduz futbolçu mühafizəçilərlə mübahisə edib



**İddiaya görə, Vanda Nara ilə görüşmək üçün Buenos-Ayresə gedən "Qalatasaray"ın ulduz futbolçusu Mauro İkardi mühafizəçilər tərəfindən içəri qəbul edilməyib.**

**"Şərq" türk mediasına istinadən xəbər verir ki, Kadrlarda İkardinin otelin qarşısına gəldiyi, lakin onu içəri buraxmayan təhlükəsizlik işçiləri ilə mübahisə etdiyi görünür.**

**İkardini saxlayan mühafizəçilər dərhal oteldə qalan Naraya məlumat veriblər. Xəbər gələnə qədər İkardini qapıda gözlədiblər. Ulduz futbolçunu yalnız Naranın icazəsindən sonra otelə girməsinə icazə veriblər. Hadisədən sonra Türkiyəyə dönən İkardi ayrılmaq qərarına gələn Naranın repçi L-Gante ilə birlikdə olduğu iddia edilən dodaq-dodağa görüntüləri də yayımlanıb. Məşhur reperin Nara ilə birlikdə çəkildiyi klip yayılıb.**

**L-Gante daha əvvəl Vanda haqqında "O, gözəl, çox gözəl qadındır. Mən onu tanımağa başladım. Birbirimizi tanımağa başladıq" demişdi.**



# 6 əlamətə diqqət edin!

## Sosiopatları asanlıqla tanımaq olur

**Antisosial şəxsiyyət pozğunluğu (sosiopatiya) olan insanlar fərqli düşünmə və anlama qabiliyyətləri ilə tanınırlar. Məşhur psixoterapevt deyir ki, sadaladığı 6 əlamət sayəsində sosiopatı asanlıqla tanımaq mümkündür. "Şərq" xarici mediaya istinadən xəbər verir ki, uzun illər şəxsiyyətlərarası münasibətləri və insan psixologiyasını tədqiq edən məşhur psixoterapevt David J.Liberman CNBC-də sosiopatlarda görünən 6 ümumi simptomu paylaşıb.**

Əvvəllər ABŞ ordusu, FTB və Mərkəzi Kəşfiyyat İdarəsinin əməkdaşlarına təlim keçmiş Liberman bildirir ki, bir sosiopatı aşkar etmək psixopatı aşkar etməkdən daha çətin olur və sosiopatlar insanın həyatına ağır zərbə vura bilir. Budur sosiopatların daşıdığı 6 davranış...

Üzərinizdə nəzarəti itirdiyiniz zaman bütün pis vərdişləriniz üzə çıxır.

Əgər kifayət qədər "itaətkar" olmadığınızı başa düşsələr, hücum edəcəklər. Sivil ünsiyyəti unuda bilərsiniz. Onlar nəzarəti itirdikdə ciddi hücum vəziyyəti ilə qarşılaşacaqsınız.

Sosiopatlar "böyük təvazökarlıq" göstərə bilər, lakin bu, başqa bir maskadır. Onlar özlərini ahəngdar, itaətkar bir fərd kimi əks etdirə bilirlər, amma əmin ola bilərsiniz ki, onların altında müxtəlif hisslər var.

### Doğru və yanlışa əhəmiyyət vermirlər

Hamı kimi doğru və yanlış davranışı ayırd edə bilən sosiopatlar da öz maraqlarına uyğun davranmağa üstünlük verirlər. Kimin incinməsini vecinə almayan bu şəxslər öz maraqlarına xidmət edən hər şeyi haqlı görürlər.



Yaxşı təəssürat yaratmağı bacaran sosiopatlar, isti və rəğbətli görünmələrinə baxmayaraq, insanları öz mənfəətləri üçün manipulyasiya edə bilərlər. Bir növ maska taxan sosiopatlar dürüst olmaq təəssüratı yarada bilər. Xüsusilə, "100 faiz günahkar deyiləm" və ya "bir daha etməyəcəyimə söz verirəm" kimi ifadələr eşidə bilərsiniz.

### Sizi necə incitməyi bilirlər

Sosiopatlar sizin mübahisədə harada zəif və həssas olduğunuzu çox yaxşı bilirlər. Emosional tarazlığınızı poza biləcək sözlərlə əsəb səviyyənizi artıra bilərlər.

**Turan**

## Fırlanan pərvanənin altında qalıb

### Təyyarə icarəyə götürən tələbə faciəvi şəkildə öldü




**ABŞ-ın Corciya ştatında bir tələbəni qızla görüş üçün kirayəyə götürdüyü tək mühərrikli təyyarənin pərvanəsi vuraraq öldürüb.**

Milli.Az bildirir ki, bu barədə Associated Press xəbər verib. 21 yaşlı Sani Aliya sevgilisi ilə birlikdə təyyarəyə minib, daha sonra aerodroma qayıdıb. Nərdivanla enən cütlük müxtəlif istiqamətlərə gedib: qız təyyarənin arxasına, tələbə isə ön tərəfə keçib. Nəticədə Aliya fırlanan pərvanənin altında qalıb və başını zədələyib. Gənc aldığı xəsarətlərdən hadisə yerində dünyasını dəyişib. Polisin məlumatına görə, hadisədə heç kimin günahı olmayıb və ölümə səbəb qəza olub.

## Tədqiqatın nəticəsi açıqlandı

### Ciddi və sərt ana uşaq psixikası üçün təhlükəlidir



**Xarakteri sərt, ciddi və uşaq tərbiyəsində əzazil olan analar uşaq psixikasını dəyişir və təhlükəlidir.**

"Medicina" xəbər verir ki, Almaniyanın Münster universitetinin alimləri ana qışqırığı və tənbehinin uşaq beyninə təsirini araşdırıb.

Uşağın üstünə tez-tez qışqıran anaların uşaqları böyüdükdə daha çox depressiyaya meyl edir. Ana öz səsi, tonu, qışqırığı və tənbehi ilə uşağın beynini sanki proqramlaşdırır. Tədqiqatda 1100 yeniyetmə valideynləri ilə bağlı sorğuda iştirak edib. Onlar analarının nə qədər mütəmadi onların üstünə çığırdıqlarını da qeyd ediblər. Sorğu nəticəsində ata-anası qəddar, ciddi, manipulyasiya edən 23 gənc seçilib. Onların beynində müxtəlif genlərin aktivliyinin dəyişməsi müşahidə olunub.

Bu uşaqlar gənc və orta yaşlarda daha çox depressibv və təşvişli olur.